

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Aparatında müşavirə keçirilib


3

# Azərbaycan və Rusiya: iki etibarlı tərəfdaş!


2

**Prezident İlham Əliyev: "Biz münasibətlərimizin inkişafından məmnunuq, onları yüksək qiymətləndiririk"**

SƏS
№ 234 (7159)
19 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Fransasayağı "demokratiya"



4

## 2024-cü il: Heydər Əliyev Fondunun imza atdığı möhtəşəm layihələr


6

## "Azərbaycan öz mövqeyini hər zaman açıq şəkildə deyib"


9

## Kitab oxumaq vərdişdir: qazanmışdıq, itirdik...


10

## Pirotexniki vasitələrin qanunsuz satışına kim icazə verir?


13

## Bakının bu ərazilərində yaşayış və qeyri-yaşayış sahələri qiymətləndiriləcək


16

# Azərbaycan və Rusiya: iki etibarlı tərəfdaş!

## Prezident İlham Əliyev: "Biz münasibətlərimizin inkişafından məmnunuq, onları yüksək qiymətləndiririk"

**"Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində deyib. "Ölkələrimiz üçün çətin vaxtlarda biz həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq, - deyən dövlətimizin başçısı bundan sonra da belə olacağına əminliyini ifadə edib.**

Azərbaycan-Rusiya əlaqələri dövlət başçılarının siyasi iradəsinə uyğun olaraq hazırda sürətlə inkişaf etdirilir. Ölkələrimizin qarşılıqlı əlaqələrində siyasi münasibətlər mühüm yer tutur. Azərbaycan və Rusiya münasibətlərinin tarixi dövrü ölkələr arasında münasibətlərin özünəməxsus xarakterini formalaşdırıb. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkələrimiz arasında münasibətlərin ən yüksək səviyyədə inkişaf etdirilməsinə başlanılıb. İkitərəfli münasibətlərin hüquqi bazasını təşkil edən əsas sənəd Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında 1997-ci il iyulun 3-də imzalanan "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə"dir. 2002-ci ilin yanvarında Ulu Öndər Heydər Əliyevin Rusiyaya dövlət səfəri isə iki qonşu dövlət arasında münasibətlərdə tamamilə yeni mərhələnin əsasını qoyub. Həmin səfər zamanı imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Xəzər dənizində əməkdaşlıq prinsipləri haqqında Birgə Bəyannamə" Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi baxımından mühüm sənəd olub. Bu sənəd Rusiya-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində inkişafını nümayiş etdirib.



### "BİZ İQTİSADİ-TİCARİ ƏMƏKDAŞLIQ ÜÇÜN FƏAL ŞƏKİLDƏ YENİ SAHƏLƏR TAPMAĞA DAVAM EDİRİK"

Əlbəttə ki, ikitərəfli münasibətlər Rusiya Federasiyasının və Azərbaycan Respublikasının xalqlarının maraqlarına tam şəkildə cavab verir, regional və beynəlxalq təhlükəsizliyin və sabitliyin təmin edilməsinə töhfə verir. Dövlətlərarası siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Müstəqillik dövründə iki ölkə arasında mövcud olan münasibətləri qoruyub saxlayaraq keyfiyyət və mahiyyətcə yeni səviyyəyə çıxarmaq mümkün olmuşdur. Bu gün Rusiya-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır və əməkdaşlığın bütün sahələrini, o cümlədən siyasi, iqtisadi-ticarət, sosial, mədəniyyət, humanitar, təhsil istiqamətləri nəzərdə tutur, eyni zamanda böyük həcmdə hərbi-texniki əməkdaşlığı əhatə edir.

Siyasi münasibətlərin ən yüksək səviyyədə inkişaf etdirilməsi iqtisadi münasibətlərin genişləndirilməsinə də müsbət təsirini göstərir. Dövlət başçımız müsahibəsində bildirib ki, əlbəttə, biz iqtisadi-ticari əməkdaşlıq üçün fəal şəkildə yeni sahələr tapmağa davam edirik.

Görülən tədbirlər nəticəsində Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələrinin dayanıqlı inkişaf dinamikası təmin edilib. Xüsusilə 2017-ci illə müqayisədə ticarət dövriyyəsi iki dəfədən çox artaraq, ötən il 4,5 milyard ABŞ dollarına çatıb. Bununla yanaşı, 2023-cü ildə iki ölkə arasında ümumi yük daşımalarının həcmi 2017-ci illə müqayisədə 87 faiz, o cümlədən tranzit yüklərin həcmi dörd dəfəyə yaxın artıb. Həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımaları 2017-ci illə müqayisədə 44 faizdən çox olub.

Onu da qeyd edək ki, sənaye kooperasiyası layihələrinin reallaşdırılması da iqtisadi əlaqələrin inkişafında xüsusi yer tutur. Rusiyanın Azərbaycandakı şirkətləri yeni istehsal sahələri, xidmət mərkəzləri yaradaraq, sənaye sahəsində daha geniş əməkdaşlığa töhfə verir. Hazırda Azərbaycanda Rusiya kapitallı 1400-dən çox müəssisə fəaliyyət göstərir. Onların 300-ə yaxını 100 faiz Rusiya sərmayəsinə malikdir. Ötən il Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının məbləği 300 milyon dollara yaxın olub.



### "BELƏ BİR BƏYANNAMƏNİN İMZALANMASI FAKTININ ÖZÜ HƏM RUSİYA, HƏM DƏ AZƏRBAYCAN TƏRƏFİNDƏN ƏN MÜHÜM SİYASİ ADDIMDIR"

Bu gün sevindirici haldır ki, müasir Rusiya-Azərbaycan münasibətləri dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və məqsədyönlülük kimi möhkəm təmələ əsaslanır. Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiya ilə də əlaqələri daim diqqətdə saxlayır. Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr, sazişlər imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə mütəmadi olaraq keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin genişlənməsinə gətirib çıxarır. İctimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Ticari-iqtisadi, investisiya, elmi-texniki və humanitar əlaqələr, vətəndaş cəmiyyəti təsisatları arasında kontaktlar genişlənir. Təbii ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Dövlətlərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır.

Dövlətimizin başçısının Rusiyaya ardıcıl rəsmi səfərləri Azərbaycanın şimal qonşumuzla dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafına verdiyi önəmi təsdiqləyir. Bildiyimiz kimi, Moskvada "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin imzalanması iki dövlət arasında münasibətlərin daha da dərinləşməsi, bir-birinin maraqlarının qarşılıqlı hörmət təməlləri üzərində qurulması baxımından əhəmiyyətlidir. Bəyannamə Rusiya ilə Azərbaycan arasında rəsmi diplomatik əlaqələrin 30 illiyinin tamam olduğu ildə imzalandı. 2022-ci ilin fevralında imzalanmış qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamənin müddəaları uğurla həyata keçirilir. "Belə bir Bəyannamənin imzalanması bizim 30 ildən artıq bir müddətdə birlikdə keçdiyimiz, fəal işlədiyimiz, həm iqtisadi-ticari, həm də siyasi sahələrdə əməkdaşlıq potensialını artırdığımız və müxtəlif çətin vəziyyətlərdə bir-birimizi sınadığımız həmin böyük yolun nümayiş etdirilməsidir. Buna görə də hesab edirəm ki, belə bir Bəyannamənin imzalanması faktının özü həm Rusiya, həm də Azərbaycan tərəfindən ən mühüm siyasi addımdır. Bu, qarşılıqlı fəaliyyətin və əməkdaşlığın ən yüksək formasıdır, xüsusən nəzərə alsaq ki, biz həm Qafqazda, həm də Xəzər regionunda qonşu dövlətlərik, qonşuyuq və bir çox cəhətdən ölkələrimizin xarici siyasət prioritetləri üst-üstə düşür, o zaman, əlbəttə, deyərdim ki, belə bir sənəd tarixi hadisədir", - deyə Prezident müsahibəsində bildirib.

İki ölkə arasında tarixi əlaqələrin genişlənməsi siyasi, iqtisadi, sosial, humanitar, mədəni sahələrdə münasibətlərin dərinləşməsində özünü göstərir. Əlbəttə ki, ikitərəfli münasibətlər Rusiya və Azərbaycan xalqlarının maraqlarına uyğundur, regional və beynəlxalq təhlükəsizliyin, sabitliyin təmin edilməsinə və möhkəmləndirilməsinə töhfə verir. Heç şübhəsiz ki, Moskva Bəyannaməsi əlaqələrin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırmağa imkanlar açıb. Sənəd tərəflər arasında bir çox sahələrdə, o cümlədən hərbi-siyasi sahədə əməkdaşlığın daha da möhkəmlənməsinə təkandır. Azərbaycan və Rusiya arasında imzalanan Moskva bəyannaməsi Qafqazda sülhün, Xəzər regionunda və Avrasiya məkanında əməkdaşlığın möhkəmləndirilməsinə töhfədir.

Ölkələrimiz arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla davam etdirilməsi və daha da genişləndirilməsi məqsədilə bu ilin yanvarında "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi" imzalanıb. Görülən işlər ölkələr arasında münasibətlərin inkişafına yeni və mühüm töhfə verəcək.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

# Azərbaycan və Rusiya: iki etibarlı tərəfdaş!

Prezident İlham Əliyev: "Biz münasibətlərimizin inkişafından məmnunuq, onları yüksək qiymətləndiririk"

## ”BİZDƏ TƏDRİS RUS DİLİNDƏ OLAN 320-DƏN ARTIQ MƏKTƏB VAR”

Azərbaycan - Rusiya əlaqələrində söz açarkən humanitar sahədə əldə olunan nailiyyətləri də qeyd etməliyik. Azərbaycanda rus ədəbiyyatına və mədəniyyətinə böyük maraq var. Məktəblərdə rus dilinin öyrənilməsi tam həcmdə saxlanılıb və 300-dən çox məktəb fəaliyyət göstərir. Müxbirin ”Azərbaycan Qafqazın ən rusdilli ölkəsi sayılır. Puşkin adına Rus Dili İnstitutunun tədqiqatları da bunu təsdiq edir. Rus dili sizin üçün xüsusi qayğı predmetidir. Siz buna necə nail olursunuz və bu, Azərbaycana nə verir?” sualına Azərbaycan Prezident belə cavab verib: ”Çox asan. Çünki ona ictimaiyyət tərəfindən tələbat var və heç vaxt hər hansı məhdudiyyət olmayıb. Hər halda mənim atamın dövründə və mənim dövrümdə olmayıb və olmayacaq. Əksinə, biz hər vəchlə çalışırıq ki, insanların rus dilini daha yaxşı bilmələri, ona mükəmməl yiyələnmələri üçün əlavə şərait yaradaq. Bizdə tədris rus dilində olan 320-dən artıq məktəb var. Bütövlükdə şagirdlərimizin bir milyona yaxını rus dilində təhsil alır və ya onu ikinci dil kimi öyrənir. Səkkiz yüz min nəfər rus dilini ikinci dil kimi öyrənir. İki universitet - MDU və Seçenov Akademiyası fəaliyyət göstərir”.

Paytaxtda Azərbaycan Dövlət Rus Dram Teatrı və Slavyan Universiteti fəaliyyətdədir. Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filialları açılıb. Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı çox uğurla fəaliyyət göstərir. Azərbaycanda ali məktəblərin rus bölməsində 15 mindən çox tələbə təhsil alır və rus dilində təhsilə maraq artır. Rus dilinə tələbatın olduğunu bildirən Cənab Prezident onun yaşadığını bildirib: ”Dili yaxşı bilmək sənə həm ədəbiyyata, həm də hər hansı elmi əsərlərə tam nüfuz etmək imkanı verir. Axı, bizim alimlərimiz, məsələn, bir çox informasiyanı Rusiya mənbələrindən alırlar. Bu, insanlarımıza təkcə rusiyalı dostları və həmkarları ilə deyil, həm də digər MDB ölkələrində olanlarla ünsiyyət qurmağa imkan verir. Yəni, bu ünsiyyət rus dili vasitəsilə aparılır. Bizdə bütün MDB ölkələri ilə, mən prezidentlərlə rus dilində danışırıq. Komandalarımız rus dilində ünsiyyət qurur. Biz görüşlər zamanı rusca danışırıq. Yəni, rus dili bunları verir. Əlbəttə ki, bu, Azərbaycanda rus icması üçün daha bir rahatlıq amilidir. Bu, ölkələrimiz arasında müsbət dövlətlərarası münasibətlərin amillərindən biridir. Bu onu göstərir ki, yenə danışdığımıza qayıdaraq demək istəyirəm: rus dilinə bu cür münasibət Azərbaycan dilinə, bizim kimliyimizə, mədəniyyətimizə heç bir zərər vermir”.

## ”ERMƏNİSTAN RƏHBƏRLİYİNDƏN AZƏRBAYCANLILARIN ÖZ TARİXİ TORPAQLARINA REİNTEQRASİYASI PROSESİNİ NECƏ GÖRMƏLƏRİ BARƏDƏ CAVAB ALMAMIŞIQ”

Prezident İlham Əliyev ”Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində Ermənistandan qovulmuş azərbaycanlılardan danışıb. Dövlətimizin başçısı deyib ki, Azərbaycanda Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda - 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır. Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib. ”Çünki onların 1990-cı illərin əvvəlində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. Ona görə də biz hələ bu günədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq”, - deyə dövlətimizin başçısı əlavə edib.

XX əsrdə Qərbi Azərbaycanda yaşayan soydaşlarımız erməni vəhşilikləri nəticəsində etnik mənsubiyyətlərinə görə dörd dəfə öz dədə-baba yurdlarından didərgin salınmışlar. Əzəli torpağın sakinlərinin arzusu tarixi Qərbi Azərbaycan torpaqları olan Göyçəyə, İrəvana qayıtmaqdır. Qazandığımız möhtəşəm tarixi Qələbə Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıtmaq hüququ yaratdı, onlarda qayıtmağa ümid yaratdı.

***Zümrüd BAYRAMOVA***

# Gürcü portalında ”Gürcüstan Azərbaycanla ikitərəfli münasibətləri yüksək qiymətləndirir” sərlövhəli məqalə dərc olunub


ЗИЯ ДОРОЖИТ ДВУСТОРОННИМИ ОТНОШЕНИЯМИ С АЗЕРБАЙДЖАНОМ

Грузия, 18 декабря, **ГРУЗИНФОРМ**. Итоги электорального цикла в Грузии, завершившегося в пользу предсказуемости диалога на общественно-политическом поле соседней страны, в обозримом будущем рассчитаны на содействие поступательному развитию всего Южного Кавказа.

Президент **Ильхам А**лиев в поздравительном послании избранному Президенту Грузии **Михеилу Кавелашвили** особо отметил, что построенные на прочном фундаменте, взаимном уважении и доверии двусторонние отношения продиктованы непреклонной волей наших народов, которые в течение всей многовековой истории живут в условиях дружбы и добрососедства, всегда поддерживая друг друга. «**Мы и впредь будем прилагать совместные усилия, направленные на дальнейшее укрепление и расширение межгосударственных отношений и стратегического партнерства, ради обеспечения стабильности и безопасности нашего региона, включая максимальную реализацию его экономического потенциала**», - говорится в тексте знакового поздравления.

Gürcüstanın http://gruzinform.ge/ portalında Azərbaycan-Gürcüstan münasibətlərindən bəhs edən ”Gürcüstan Azərbaycanla ikitərəfli münasibətləri yüksək qiymətləndirir” sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstanın seçilmiş Prezidenti Mixeil Kavelaşviliyə təbrik məktubunda qeyd olunan fikirlərə xüsusi diqqət yetirilir. Bildirilir ki, Prezident İlham Əliyev Mixeil Kavelaşviliyə təbrik məktubunda Azərbaycan-Gürcüstan əlaqələrinin tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış, bir-birinə daim dəstək olmuş xalqlarımızın iradəsindən qaynaqlandığını vurğulayıb. Qeyd edib ki, belə möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərimizin bu gün hərtərəfli və müvəffəqiyyətlə inkişaf etməsi bizi sevindirir.

Həmçinin məktubda deyilir: ”İnanıram ki, ölkələrimizin və xalqlarımızın rifahı, regionumuzun sabitliyi və təhlükəsizliyinin təmin olunması, iqtisadi potensialının reallaşdırılması naminə dövlətlərarası əlaqələrimizin və strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində birgə səylər göstərəcəyik”.

Dövlətimizin başçısının fevralın 14-də Milli Məclisdə növbədənkənar prezident seçkilərinin yekunlarına dair təntənəli andiçmə mərasimindəki çıxışından gətirilən sitatda deyilir: Avropanın heç bir yerində bizi gözləmirlər və artıq bunu gizlətmirlər. Məsələn, işğal zamanı gözümüzə toz tökərək müəyyən vədlərlə bizi şirnikləndirməyə çalışırdılar, bu gün ayırıcı xətlər aydın görünür. Yəni bir-birinə yaxınlaşmağa yox, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqaz dövlətlərini bir-birinə qarşı qoymağa çalışırlar. Belə olan halda bizi qəbul etmək istəməyənlərə çətin ki baş əyək!

Bu, və digər bir sıra hadisələr, o cümlədən Bakıda uğurla başa çatmış COP29 qlobal İqlim Konfransı ərəfəsində rəsmi Paris və Vaşinqtonun nəzarətində olan medianın səhnələşdirdiyi ”çay fincanında fırtına” ərəfəsində deyilib. Eyni oyunçular parlament seçkilərinin nəticələrindən sonra qonşu Gürcüstanda vəziyyəti gərginləşdirəcək. Bildirilir ki, ”dəyişiklik küləyi”nə əmr verənlər həqiqətən də Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı əlaqəni, o cümlədən postsovet məkanında regional reallıqları məhv etmək istəyirdilər. Üç dövlətin enerji, nəqliyyat və logistika, kənd təsərrüfatı-sənaye və hətta hərbi-siyasi potensialını birləşdirən ən səmərəli işgüzar tərəfdaşlıq sistemi formalaşıb. Azərbaycanın ənənəvi olaraq Gürcüstan iqtisadiyyatının aparıcı investoru olduğu, investisiyaların əhəmiyyətli hissəsinin Azərbaycan Dövlət Neft Şirkətinin törəmə müəssisəsi - ”SOCAR Energy Georgia” tərəfindən təmin edildiyi xüsusi vurğulanır.

Qeyd olunur ki, uzun illərdir Bakı və Tbilisi birgə nəqliyyat və enerji layihələri çərçivəsində sıx bağlıdırlar. Hər iki ölkənin ərazisindən neft və qaz tranzit boru kəmərləri şəbəkəsi çəkilib, neft, yanacaq və neft-kimya məhsullarının daşınması üçün terminallar yaradılıb. Gürcüstan limanları vasitəsilə Xəzər regionundan xammal Qara və Aralıq dənizlərinin bazarlarına çıxarılaraq, Avropanın enerji təhlükəsizliyini uğurla təmin edir.

Son illərdə elektrik enerjisinin Türkiyə bazarına ixracı istiqamətində də dinamik şəkildə layihələr həyata keçirilir və sonradan qitənin cənubunda yerləşən bir sıra ölkələrə, o cümlədən Avropa İttifaqının üzvü olan ölkələrə ötürülür. Nəqliyyat və logistika sektorunda birgə səylər də az əhəmiyyət kəsb etmir. Oktyabr ayında Avropanı Mərkəzi Asiya və Çinlə birləşdirən, bu il modernləşdirilən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən 7 il keçir”, - deyə məqalədə vurğulanır.



## YAP Mərkəzi Aparatında müşavirə keçirilib





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar dekabrın 18-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planında əks olunan əsas hərəkət və tədbirlərlə əlaqədar ötən müddət ərzində görülmüş işlər ətrafında müzakirələr aparılıb, onların icra vəziyyətinin təhlili əsasında növbəti dövr üçün konkret vəzifələr müəyyən edilib, müvafiq tapşırıq və tövsiyələr verilib.

# Fransasayağı "demokratiya"

## ...Və yaxud Makron separatizmlə azadlıq mübarizəsini niyə qarışdırır

"Avropanın mərkəzində - Korsikada onlar (Fransa - red.) Korsika dilini qadağan edirlərsə, bu dilin ictimai yerlərdə istifadəsinə icazə vermirlərsə, o zaman Yeni Kaledoniya haqqında nə demək olar? Bu, nəyə yarayar? Bu demokratiyadır? Bu, insan hüquqlarıdır?". Bu fikirləri söyləyən Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində əlavə edib ki, Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil. Hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir.

Azərbaycan Prezidentinin bu fikirləri Fransanın bir dövlət kimi nə qədər çətin duruma düşdüyünü, siyasi burulğanda çapaladığını, indiyədək təbliğat maşını vasitəsilə bu ölkə haqqında yaradılan mifin dağıldığını, Makronun hakimiyyəti dövründə Yelisey Sarayından verilən qərarların nə qədər düşsiz olduğunu, tarixi Fransanın tənəzzülə uğradığını göstərir. Fransa "demokratiya" və "insan haqları" kimi fəlsəfədən bu gün dəyənək kimi istifadə edir. Paris ifşa olunub, onun nüfuzu hər gün aşağı düşür, dünyanın hər yerindən rəzilliklə qovulur, yaratdığı idarə-üsulları bir anın içində yerlə yeksan olur. Afrika xalqları Fransaya qarşı ayaqdadırlar, ölkələrindən Parisin izini-sorağını kəsmək üçün direniş göstərirlər. Dənizaşırı ölkələrin xalqları üsyana başlayıblar, Fransanın yaratdığı istismarçı rejimlərə qarşı ölüm-dirim savaşındadırlar.

Azərbaycan ərazilərində, konkret olaraq Qarabağ bölgəsində ermənilərin yaratdığı qanunsuz separatçı rejimi dəstəkləyən Makron administrasiyası müstəmləkəsi olan ölkələrdə baş qaldıran azadlıq hərəkatlarına başqa don geydirməyə, status verməyə, onları quldur, terrorçu adlandırmağa cəhd edir. Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə toplantısında 13 dənizaşırı ölkə təmsilçilərinin iştirakı Parisi, xüsusilə də Makronu özündən çıxarıb. Buna görə də hər addımda Azərbaycanı qaralamaq, ölkəmizə qarşı hansısa tədbir görmək istəyi də ortadadır. Hətta Makronun göstərişi ilə Fransanın Milli Assambleyasında və Avropa Parlamentində Azərbaycana qarşı sanksiyaların tətbiq olunması təklifi göndərilmişdi. Düzdür, həmin təklif hələ də realizə olunmasını gözləyir. Sadəcə Avropada və dünyada baş verən kataklizmlər, qarşıdurmalar, Fransada hakimiyyət böhranı, Avropa Parlamentində rüşvət və korrupsiya qalmaqalı bu ideyanı arxa plana keçirib.



### Makronun və Fransanın böhranı

Fransa prezidenti Emmanuel Makron ölkəsində baş verən və həlli hələ də mümkünsüz görünən siyasi böhranı həll etməyə çalışır. İfrat solçu və ifrat sağçı qüvvələrin onun namizədlərinə etimadsızlıq səsi bildirmək niyyətində olduğu bir şəraitdə onun stabil hökumət yaratmaq çətinliyi var. Çox güman ki, tərəflər gələn ilin yeni büdcəsi ilə bağlı razılığa gələ bilməyəcəklər. Lakin bu halda fransızların rifahı naminə siyasətçilər kompromis texniki büdcəyə, bəlkə də mərkəzçi baş nazirə - texnokrata razılaşmalı olacaqlar.

Parlament partiyalarının liderləri baş nazir postuna potensial namizədləri müzakirə etmək üçün Makronla görüşüb, istefa verən Mişel Barnierin yerinə kimin keçəcəyini müzakirə ediblər. Müxtəlif siyasi spektrlərin nümayəndələri ilə görüş Beşinci Respublika Prezidentinə çətin seçimdə kömək etməli idi. Bununla belə, namizədin təsdiqlənəcəyi fakt deyil, nəinki onun vəzifədə uzun müddət qalması. Məsələ burasındadır ki, nə Milli Cəbhənin faktiki lideri Marin Le Pen, nə də ifrat solçu "Fəth olunmamış Fransa"nın nümayəndələri Makronla əlaqə saxlamayıblar. Lakin Barnierin istefasını mahiyyətcə Milli Assambleyada ən çox yerə sahib olan bu iki siyasi qüvvə təşkil edir. Bəlkə də Makronun planı solçu koalisiyanı parçalamaq və "Fəth olunmamış Fransa"nın müttəfiqlərini əməkdaşlığa inandırmaqdır. Siyasi böhran isə getdikcə dərinləşir. Kreslosunda güclə dayanan ölkə rəhbəri problemi həll etməyə çalışsa da, ifrat solçu və ifrat sağçı qüvvələrin prezident Makronun namizədlərinə etimadsızlığı stabil hökumətin yaradılmasına maneçilik törədir. Çox güman ki, tərəflər gələn ilin yeni büdcəsi ilə bağlı razılığa gələ bilməyəcəklər. Lakin bu halda fransızların rifahı naminə siyasətçilər kompromis texniki büdcəyə, bəlkə də mərkəzçi baş nazirə - texnokrata razılaşmalı olacaqlar.

Makron nəhayət növbəti qurbanını - Fransua Bayrounu təqdim etdi. O, bu vəzifəyə Emmanuel Makron və bütövlükdə iqtidarda olan partiya üçün çox əlverişsiz bir vəziyyətdə başlayır. O, etimadsızlıq səsverməsindən qorxmadan işləyə bilmək üçün spektrin hər yerindən siyasətçilərə yanaşmalar tapmalı olacaq. Tutaq ki, mərkəzin lütfü onun cibindədir. Siyasətçi həmişə sosialistlərə kifayət qədər yaxın olub, sağçı sarkozçulara qarşı birləşib. Fransua Bayrounun hətta bir vaxtlar prezidentlik kampaniyasında dəstəklədiyi şəxsən Marin Le Penlə də yaxşı münasibəti var. Amma şübhəsiz ki, ifrat sağın lideri bunu xatırlayır. Marin Le Pen əlbəttə ki, artıq "makronizmin davamının" "dalan və uğursuzluğa" gətirib çıxaracağı barədə xəbərdarlıq edib və yeni baş nazirdən sələfinin etmək istəmədiyi şeyi etməyi: müxalifəti dinləməyi tələb edib. Fransua Bayrounun Emmanuel Makronun siyasətini açıq şəkildə dəstəkləməsi ehtimalı da azdır.




### Afrikadan nə xəbər?

Noyabrın 28-də Seneqal prezidenti Bassirou Diomai Fay Fransa hərbi kontingentinin ölkədən çıxarılmasını elan edib. Elə həmin gün Fransanın xarici işlər naziri Jan-Noel Barraultun səfərindən bir neçə saat sonra Çad hakimiyyəti Parislə müdafiə sazişinin ləğv edildiyini elan etdi. Bu qərarlar Fransız qoşunlarının Sahel xuntaları ilə fırtınalı qarşıdurma ilə müşayiət olunan Malidən, Burkina Fasodan, daha sonra Nigerdən məcburi çıxarılması məntiqinə uyğun gəlir.

Paris və bir sıra Afrika dövlətləri arasında domino effektli müdafiə sazişləri tarixi dönüş nöqtəsini təmsil edir. 2017-ci ilə qədər, on minə yaxın Fransız əsgəri hələ də qitənin doqquz ölkəsində, Barkhane əməliyyatının bir hissəsi olaraq Sahel daxilində yerləşdirilən 5,100 kontingentlə yerləşdirilib. Yeddi il sonra Fransa Saheli tərk etmək məcburiyyətində qaldı və onun hərbi mövcudluğu Cibutidə 1500, Fil Dişi Sahilində 600 və Qabonda 300 əsgərə endirildi. Yeddi il ərzində Emmanuel Makron Fransa ilə Afrika arasında 70 illik imtiyazlı əlaqələrin mirasını məhv edərək ölkəmizi diplomatik və strateji tənəzzülə sürüklədi.

Fransanın uğursuzluğunu xarici siyasətdə səhvləri və təsir alətlərinin itirilməsi ilə izah etmək olar. Fransa diplomatiyası Afrikada baş verən transformasiyaları - istər qloballaşmaya inteqrasiya, istər orta sinifin yaranması, istərsə də əhalinin orta yaşının 19 olduğu qitə gəncləri arasında suverenlik istəyinə məhəl qoymadı. Paris XXI əsr tiraniyalarının yüksəlişini lazımi səviyyədə qiymətləndirmədi: Rusiya, hərbi güc və dezinformasiya baxımından, Çin - iqtisadi güc məsələlərində, Körfəz ölkələri - din məsələlərində. Fransa bir tərəfdən diplomatik ambisiyaları və hərbi mövcudluğu, digər tərəfdən isə biznesin, investisiyaların və ixracatın qaçması, dil və mədəni əlaqələrin pozulması arasında uçurum yaranmasına icazə verdi.

Afrikada, daxili siyasətdə olduğu kimi, Emmanuel Makronun təkəbbürlü və qeyri-ciddiliyi kövrək sistemin dağılmasına səbəb oldu. Geosiyasi sistem avtoritar imperiyalar və demokratiyalar arasında qarşıdurmaya doğru getdiyi bir vaxtda, qloballaşma prinsiplərinin iflasa uğradığı və qüvvələr balansı ideologiyasına qayıdış dövründə Emmanuel Makron dövlət başçıları ilə münasibətlərdə dalana dirəndi. "Yumşaq güc" baxımından da vəziyyət eyni dərəcədə fəlakətlidir. Fransız şirkətləri və hər şeydən əvvəl banklar Afrikanı tərk ediblər. İnkişaf yardımı korrupsiyanı gücləndirdi və əsasən Çin və Türkiyə şirkətlərinə xeyir verdi. Fransanın qitədən iqtisadi çıxması regional inteqrasiya və əməkdaşlıq alətlərini, xüsusən Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyini və maliyyə sektorunu sabitsizləşdirib.

Parisin Afrikadakı mövqeyinin iflasa uğramasının Avropa və dünya geosiyasəti üçün çox böyük nəticələri var. Fransanın qitədən qovulması bu ölkənin müttəfiqlər və tərəfdaşlarla, eləcə də BMT-də əsas təsir mənbəyindən məhrum edir və onun tənəzzülünü simvollaşdırır. Fransız qoşunlarının getməsi həm də son nəticədə ciddi strateji təhlükə yaradacaq geniş "Saxelistan" yaradan cihadçıların əllərini azad edir. Fransanın məcburi köçü həm də Avropanı gələcəyi üçün vacib olan qitədən ayırır: istər Moskvanın şantaj vasitəsi kimi istifadə etdiyi miqrasiya (qitənin əhalisinin 2050-ci ilə qədər 2,5 milyard olacağı təxmin edilir), iqtisadi artım, kritik xammala çıxış, qlobal istiləşmə və ya təhlükəsizlik.

Fransa və Avropanın təkcə inkişaf etməkdə olan qitə kimi potensialını deyil, həm də risklərini nəzərə alsaq, Afrikanı itirmək lüksü yoxdur. Fransanın Afrika ilə imtiyazlı əlaqələri öz əlləri ilə məhv etdiyi Beşinci Respublikanın əsas sərvətlərindən biri idi. Ancaq yerini məmnuniyyətlə Çin və hər şeydən əvvəl Rusiya ilə əvəz edəcək Fransanın getməsi Afrikanın özü üçün də mənfidir. Bunu Mali, Burkina-Faso, Niger və Mərkəzi Afrika Respublikasında dövlət strukturlarının dağılması, cihadçıların hücumu, iqtisadiyyatın parçalanması və pis rus "Afrika Korpusu"nun filiz sərvətlərinin aktiv şəkildə inkişafı sübut edir.

Fransanın gücünü bərpa etmək "Afrika ölçüsü"ndə işləməyi və 2050-ci ilə qədər 700 milyondan çox insanın yaşadığı fransızdilli dünyadan maksimum yararlanmağı əhatə etməlidir. Ancaq suverenliyi və təhlükəsizliyi birinci yerə qoyaraq yanaşma kökündən dəyişməlidir. Bu vəzifə diplomatik, hərbi, iqtisadi, dil və mədəniyyət sahələrində fəaliyyətlərin əlaqələndirilməsi yolu ilə və afrikalıları dinləmək və onların ərzaq təhlükəsizliyi, səhiyyə və təhsilə çıxış, qitənin böyük resurslarından istifadə, inkişaf və təhlükəsizlik üçün maliyyə tələblərini nəzərə alaraq həll edilməlidir. "Fransız Afrikası" çoxdan ölüb və basdırılıb. Və Fransa ilə Afrika arasında strateji tərəfdaşlıq hələ icad edilməyib.

**V.VƏLİYEV**

# Qərb tərəfindən PLANLAŞDIRILANLAR

Qərbin Tbilisidə qurduğu və oynadığı "oyunlar" bir müddət əvvəl Ukraynada yaratdığı mənzərəni xatırladır. Təəssüf doğuran odur ki, Gürcüstan müxalifətçiləri və ümumiyyətlə, Qərbin alətinə çevrilənlər "qurban" olaraq hazırlandıqlarının hələ də fərqində deyillər. Fərqində deyillər ki, Qərb Tbilisidə hakimiyyəti ələ keçirmək üçün bütün vasitələrə əl atır və Gürcüstanın "ikinci Ukrayna" olması belə planlaşdırılır.

### Tbilisidəki mövcud vəziyyət Qərb tərəfindən planlaşdırılanlara uyğun şəkildədir

Ən böyük təəccüb və xüsusən də təəssüf doğuran Gürcüstan müxalifətinin Tbilisidə etirazlar zamanı səsləndirdiyi fikirlərdir və onların "könüllü" şəkildə "qurban" olmağı qəbul etdiklərini təsdiq edən dialoq həqiqətən də şokedicidir. "Gürcü Maydanına qan lazımdır, əks halda daha heç kim etiraza çıxmayacaq", - deyə Tbilisidə etirazçılar arasında belə şokedici dialoqun Gürcüstan dövlət televiziyası tərəfindən yayımlanan görüntüləri az qala damarda qanı da dondurur. Doğrudanmı müxalifətçilər eyni ilə Ukraynadakı kimi Gürcüstanda da qan tökülməsini istəyirlər? Yəni, həqiqətən də öz ölkəsində qan tökülməsinə razı olan vətəndaş ola bilərmi? Qan tökülməsini, yüzlərlə cəsədi və kütləvi dəfn mərasimlərini, eyni ilə 10 il əvvəl ukraynalıların başına gələnləri görən Gürcüstan müxalifəti indi də Qərbin eyni mənzərəni Tbilisidə yaratmasına "ehtiyac" duyur, yoxsa biganə yanaşır? İstənilən halda bunun qəbuledilməz olmasının əksini fərz etmək belə mümkün deyil və əgər bu, Gürcüstan müxalifəti üçün artıq qəbuledilən sayılırsa, deməli, Qərb tərəfindən Gürcüstanda planlaşdırılanların nəinki reallaşdırıldığı, hətta bunun nədən ibarət olması da bəlli olur.

Gürcüstan dövlət televiziyası tərəfindən yayımlanan və Tbilisidən olan video görüntülərdə etirazların düz mərkəzindən cəmi 300 metr aralıda yerləşən yerli operanın damında növbətçi snayperlərin özlərinə "yer eləmələri" və istənilən anda atəş açmağa hazır olmaları həqiqətən də dəhşətli mənzərədir. Ona görə ki, bu mənzərə artıq Gürcüstan müxalifətinin bu gün "qana ehtiyacı olduğunu" təsdiqləyir. Hər halda, bütün bunların məhz hökumətə, eləcə də təhlükəsizlik qüvvələrinə qarşı xalqın qəzəbini oyatmaq niyyəti olmasını başa düşmək üçün ekspert olmağa ehtiyac yoxdur. Başa düşülən odur ki, Qərbin aləti olanlar elə məhz onların görmək istədikləri mənzərəni yaratmağa çalışırlar. Belə çıxır ki, Tbilisidəki mövcud vəziyyət Qərb tərəfindən Gürcüstanda planlaşdırılanlara uyğun şəkildə formalaşdırılıb.

### Ukraynadakı mənzərənin eynisi müşahidə edilməkdədir

Ukrayna ilə aydın şəkildə görünən eyni paralellik var, çünki elə on il əvvəl də Ukrayna Avromaydanının təxribatçıları məhz təhlükəsizlik qüvvələrini qisas almağa təhrik etmək üçün mümkün olan hər şeyi edirdilər. Məsələn, onlara daşlar, molotov kokteyli atılırdı və dırnaqarası "atəşfəşanlıq" yaratmaq üçün bütün mümkün əməllər məqbul hesab olunurdu. Məsələ burasındadır ki, bu gün Tbilisidə də eyni şey baş verir. Etirazçılar elə Gürcüstanda da gürcü polisinə qarşı daş, molotov kokteyli atırlar və həmin o dırnaqarası "atəşfəşanlıqdan" da istifadə etməyə artq başlayıblar. Deməli, Qərb tərəfindən gürcülər üçün, Gürcüstan üçün planlaşdırılanlar artıq tətbiq olunmaqdadır və bunun Ukraynadakı mənzərənin eynisi olmasına zərrə qədər də şübhə qalmır.

Ukraynada olduğu kimi, iğtişaşları göstərmək, hətta belə demək mümkünsə, nümayiş etdirmək üçün guya "müdafiəsiz vətəndaşların" iştirakı ilə məhz səhnələşdirilmiş kadrlar hazırlanır. Bundan da elə etirazları radikallaşdırmaq üçün istifadə olunur. Diqqət etdikdə görürük ki, polisə hücum edənlərin guya zərərsiz inqilabçılar olduğu süni şəkildə göstərilir. Onların məhz ən çox Avropa Birliyinin bayraqlarını gəzdirmələri, həmin bayraqları öz üzərlərinə atmaları da diqqəti cəlb edən məqamdır və bu, Qərbin hazırladığı planın bir hissəsi olduğunu təsdiqləyir. Artıq məlumdur ki, bu, insanlara Qərblə birlik hissi vermək üçün istifadə edilən Maydanın xüsusi simvolu kimi sırımaq üçün planlaşdırılıb.

Görünən odur ki, plana uyğun şəkildə, əvvəlcə, bir qayda olaraq, Aİ bayraqlarına bürünən insanlar təhlükəsizlik qüvvələri ilə toqquşmalarda qətiyyən iştirak etmirlər. Bu o deməkdir ki, Qərb kəşfiyyat xidmətləri Avropa bayraqları gəzdirən insanların çox dinc, pasifist olduqlarını və onların heç bir şəkildə radikallarla əlaqəsi olmadığını göstərməyə çalışırlar. Amma göründüyü kimi, etirazlar radikallaşan zaman Aİ bayraqlarına bürünənlər tərəddüd belə etmədən polislə toqquşmalarda iştirak etməyə başlayırlar. Bu isə o deməkdir ki, ortada ancaq süni şəkildə qurulan "görüntülər" var və bunun özü də Qərb tərəfindən Gürcüstanda planlaşdırılanların bir hissisidir.




### Uşaqların etiraz aksiyalarında iştirakı Maydan "metodologiyasına" uyğundur

Uşaqların belə Gürcüstandakı etiraz aksiyalarında iştirakı da yenilik deyil. Maydan "metodologiyasına" görə etirazların radikallaşmasının növbəti mərhələsi və səviyyəsi uşaqların etiraz aksiyalarında iştirakıdır. Metod, yeri gəlmişkən, avroliberalların ən prinsipsiz və kinsiz hissəsi üçün olduqca populyardır. Bu gün Tbilisidə Ukraynadan başqa Gürcüstanı da müharibə odunda yandırmağa səbirsizlənənlərin etdikləri bax elə məhz budur. Bu qarışıqlıqda, bu xaosda uşaqları meydana çıxarmaq heç bir ölçüyə gələn deyil, amma görünür, Qərb üçün artıq hansısa ölçü, hansısa meyar heç bir rol oynamır və nəzərə də alınmır. Amma Qərb ilk növbədə nəzərə almalıdır ki, uşaqları "ölümə çağırmaq" ən ağır cinayət sayılır və ali dəyərlərdən dəm vuranlar heç olmasa bunu da olsa nəzərə alsınlar. Heç olmasa nəzərə alsınlar ki, sosial şəbəkələrin Gürcüstan seqmentində və Qərb xəbərlərində bir gecədə etiraz edən yeniyetmələrin videoları kifayət qədər çoxdur.

Kiyevdə bir vaxtlar olduğu kimi, indi Tbilisidə polisə hücumlarda əsasən yeniyetmələrin iştirak etmələri artıq Qərbin bütün dəyərləri hesaba belə almamasını, öz planlarını gerçəkləşdirmək üçün qanunsuz belə olan hər əmələ əl atdığını göstərir. Hər halda, polisi məhz uşaqları döyməyə sövq etdirmək üçün qəsdən məktəblilərin, uşaqların, yeniyetmələrin etiraz aksiyalarına cəlb edildiyi bəllidir. Bəllidir ki, Qərb sonra da bu "qurbanlardan" hakimiyyətə təzyiqi artırmaq üçün səbəb kimi istifadə niyyəti güdür. Bax elə Qərbin Gürcüstan üçün planlaşdırdıqlarından biri də budur. Xüsusən də polislərin uşaqları və qadınları "əzməsi" görüntüsünü yaratmaq üçün bu uşaqları və qadınları etiraz aksiyasına "gətirmək" planı düşünülmüş şəkildə işə salınır. Bu planın növbəti hissəsində isə Qərbin hakimiyyətə cavab olaraq, müvafiq xüsusi vasitələrdən və uyğun metodlardan istifadə etməsi durur

### Nuland peçenyeləri və barrikadalar arası toy Ukraynadakı eyni mənzərənin canlandırılması, eyni məqsədə nail olunması üçündür

Maydanda bir ziyafətin, daha dəqiq desək, ukraynalılara verilən yeməklərin, içkilərin və məşhur Nuland peçenyelərinin paylanması da yaddaşlardadır. Belə "kadrların" nə üçün lazım olduğu barədə indi tam zamanında düşünməyə dəyər. Çünki indi də buna oxşar mənzərə elə Tbilisidə də var və bu həftə etiraz iştirakçılarına peçenyelərin paylanması məhz Ukraynada olanları xatırladır. Təbii ki, belə "kadrlarla" və "görüntülərlə" manipulyasiya etmək niyyəti dərhal bəlli olur.

Etirazçıların şüurunun belə manipulyasiyasına daha bir bariz nümunə barrikadalarda keçirilən "toy mərasimi" sayıla bilər. Elə məhz bu kadr da Ukrayna Maydanının məşhur simvollarından biri kimi, etirazların qızğın olduğu "yerdə" keçirilən toy kadrı ilə eynilik təşkil edir. On il əvvəl bu "mənzərə" bütün "Qərb xəbərlərində" yayılmışdı. Görünür, ortada eyni ssenari var və eyni şəkildə də Gürcüstandakı "toy" Qərb xəbərlərində yayılmaq üçün "hazırlanıb" və ortada fərqli heç nə yoxdur. Tbilisidəki hazırkı iğtişaşdan olan kadrlarda məhz gəlinlik geyinmiş cütlük də eyni ilə Rustaveli prospektində etirazların tam ortasında, özü də Qərb jurnalistləri qarşısında sevinclə "pozalar" verirsə, deməli, yenə də hadisələr eyni ssenari üzrə gedir və yenə də "gözləntilər" eynidir.

Təbii ki, belə "kadrlarla", belə "toy mənzərələri" ilə göstərməyə çalışırlar ki, guya Gürcüstanın gələcəyi haqqında planlar qurulur. Ələlxüsus da bu "toy", yəni, "ailə qurmaqda olan cütlük" mənzərəsi ilə elə bir fikir formalaşdırmağa çalışırlar ki, guya bu etirazlar, bu hadisələr Gürcüstan üçün bundan sonra yeni nəsil, gənclər, ailələr yaradacaq, hətta övladlar dünyaya gətirəcək. Bir sözlə, qurma olduğu dərhal bəlli olan bu "mənzərə" arxasında nəzəri olaraq, Gürcüstanın gələcəyini guya insanların özlərinin seçdikləri görüntüsü və fikri formalaşdırılır. Sözsüz ki, bütün bunlar qurmadır və ələlxüsus da bunun özünün də bir manipulyasiya olduğu zərrə qədər də şübhə doğurmur. Biz belə manipulyasiyaların, Qərb tərəfindən qurulan belə "mənzərəli oyunların" çox şahidi olmuşuq və bilirik ki, yenə də eyni ssenari qurulmaqla, eyni şəkildə də manipulyasiyalara yol verilməkdədir.

Gəlinlik paltarı ilə meydana çıxan qızı bəylik geyimində qarşılayan oğlanın qurulma görüntüsü ilə yanaşı, digər ənənəvi bayram əhval-ruhiyyəsi görüntülərinin də eyni şəkildə oxşar məqsədlər üçün nəzərdə tutulduğu artıq bəllidir. Xatırladığımız kimi, eyni ilə Ukraynada da xalq şənlikləri görüntüləri yaradılırdı. Hətta aksiyalarda xüsusi geyimlərdə marşlar, artistlərin çıxışı da xatirimizdədir. İndi bunları Gürcüstanda bir daha müşahidə etdikdə yenə də əmin oluruq ki, qonşu ölkədə də Maydan "texnoloqları" qondarma "rahat" inqilab görüntüsü yaratmaqdadırlar. Hətta hamıya tanış olan məişət əşyalarının, ələlxüsus da, Maydanın əsas simvolu sayılan "qazan" belə ortaya çıxdı. Niyə qazanlar Ukrayna və Gürcüstan Maydanının simvoluna çevrilir? Əvvəla ona görə ki, onlar hər evdə var. Digər tərəfdən də, onlar səhnələşdirilmiş kadrlarda xüsusilə fərqlənirlər. Həmçinin də nəzərə alınır ki, tava, qazan açıq havada "praktik məqsədlər" üçün də istifadə edilə bilər. Heç şübhəsiz ki, "mətbəxdə istifadə olunan qablar", Aİ bayraqları və peçenyelərin paylanması ilə manipulyasiyanın bütün formaları etirazlara mümkün qədər çox qüvvə qatmaq, əlavə insanlar cəlb etmək üçün nəzərdə tutulub və yenə də Qərb tərəfindən planlaşdırılanların eyni mahiyyət kəsb etdiyi ortadadır.

### Qərb məhz Gürcüstanda daha bir Maydan təşkil etmək niyyətindədir

Ukrayna Silahlı Qüvvələrinin muzdluları belə Gürcüstandakı etiraz aksiyalarına "köçürülməyə" hazırlaşdırılır. Nəzərə də alınır ki, Avromaydanın əsas dayağı həmişə elə "millətçi batalyonlar" olub. Diqqətə çatdıraq ki, hətta Zelenskinin ofisinə yaxın mənbələrin bildirdiklərinə görə, Tbilisidəki etiraz aksiyalarına Ukrayna Silahlı Qüvvələrindən gürcü muzdlularını göndərməyə belə Qərb çoxdan "yaşıl işıq" yandırıb. Bəzi mənbələrin məlumatına əsasən, hətta Ukraynada "Gürcüstan legionu"nun komandirlərinin iclası da keçirilib və orada Gürcüstan Maydanında iştirak etmək niyyəti ilə milli qvardiya yaratmaq üçün silahlıların Tbilisiyə köçürülməsi barədə qərar da qəbul edilib. Eyni zamanda, bir ali baş komandan kimi Zurabişviliyə Ukraynada döyüşən onlarla gürcü qrupunun komandirləri tərəfindən müvafiq müraciətin də göndərildiyi barədə informasiyalar yayılıb. Onlar arasında Ukrayna Silahlı Qüvvələrinin "Qafqaz legionu"nun qurucusu Lado Qamsaxurdiyanın, "Legion"un komandiri Georgiy Kesarelinin, "Tbilisi" batalyonunun komandiri Qoça Xoravanın, "Qara Qartal"ın komandiri" Vako Suladzenin olduğu da həmin informasiyalarda yer alır.

Görünən odur ki, Qərb məhz Gürcüstanda daha bir Maydan təşkil etmək niyyətindədir. Gürcüstanın qanuni hökumətini və parlamentini devirmək istəyi də ortadadır. Təbii ki, bütün bunlar Qərbin maraqları üçündür. Məhz həmin maraqlara görə bundan sonra hələ daha "geniş planlar" qurula, eləcə də "daha iri addımlar" atıla bilər. Bəzi politoloqlar bununla bağlı həyəcan təbili çalmaqdadırlar. Bir çoxlarının proqnozlarına görə, Ukrayna Silahlı Qüvvələrinin tərkibində döyüşən gürcü millətindən olan nasistlər də istənilən anda ora "köçürülə" bilərlər.

### Gürcüstanda hakimiyyəti Qərbin ələ keçirəcəyi təqdirdə baş verə biləcək olaylar

Bütün bu hadisələrin fonunda sual yaranır ki, görəsən, Qərb və Gürcüstan müxalifəti nəyə nail olmağa çalışır? Cavab da əlbəttə ki, bəllidir və Gürcüstanı ikinci Ukraynaya çevirmək və qonşu ölkənin ərazisində Rusiyaya qarşı daha bir "qaynar nöqtə", cəbhə yaratmaq "ön planda" durur. Əgər Qərb həqiqətən də Gürcüstanda hakimiyyəti ələ keçirib onu millətçi batalyonların əlinə verə bilsə, vaxtilə Ukraynada olduğu kimi, Qafqazın da "düz ortasında" Abxaziya və Cənubi Osetiya kimi iki gərginlik ocağı yarana bilər.

Budur, hipotetik bir düşmənin ən qaynar hesab etdiyi nöqtələrdən necə istifadə etməyə çalışdığı göz önündədir. Göz önündə olan həm də odur ki, Qara dəniz sahilində, Abxaziya ilə sərhədin yaxınlığında NATO hipotetik olaraq, təyyarədaşıyan qruplar üçün körpü başlığı da yarada bilər. Məlumdur ki, bu məqsədlər üçün Gürcüstanın Anaklia şəhərində dərin dəniz hərbi limanı da tikilib. O, həm də nəzərə almaq lazımdır ki, Soçidən cəmi 170 kilometr məsafədədir.

Cənubi Osetiya istiqamətinə gəlincə, burada da NATO öz aviasiyasına "tramplin" yarada biləcəyi ehtimalı var. Ehtimal ki, o, Gürcüstanın Vaziani bazasında yerləşə bilər. Onun Tsxinvalidən cəmi 110 kilometr, Rusiyanın Vladiqafqazından isə cəmi 160 kilometr məsafədə yerləşməsi də heç şübhəsiz ki, əvvəldən nəzərə alınıb. Yeri gəlmişkən, diqqətə çatdıraq ki, bir qədər əvvəl ortaya çıxan məlumata görə, Qərb hərbçiləri artıq gizli şəkildə F-16 qırıcılarını Gürcüstan aviabazasına köçürməkdədir. İndi politoloqların əksəriyyəti belə bir qənaətdədirlər ki, Qərb "öz məqsədinə" nail olmaq üçün hər hansı bir "nöqtə" axtarır ki, Rusiyaya bir növ "təsir" göstərə bilsin. Təbii ki, buna görə də eyni ilə Ukrayna kimi, Gürcüstan da planlaşdırılmalara uyğun olaraq Qərbin hədəfinə çevrilib.

### Tbilisi istənilən anda Qərbdən üz döndərə bilər

Bəzi politoloqlar hərbi münaqişə belə proqnozlaşdırsalar da, hadisələrin, olayların birbaşa hərbi münaqişəyə gedəcəyi ehtimalı çox azdır. Tbilisinin bu gün əmin etdiyi kimi, ölkənin ikinci Ukraynaya çevrilməsinə Gürcüstanın hazırkı hökuməti imkan verməyəcək. Əslində, belə də olmalıdır və Gürcüstanın hazırkı hakimiyyəti siyasi iradə nümayiş etdirməli, qonşu ölkədə Ukrayna hadisələrinin təkrar olunmasına, eyni şəkildə fəlakətə sürüklənməsinə imkan verməməlidir. Çünki bu, ilk növbədə gürcülərin öz təhlükəsizliyini təhdid edir və bütövlükdə Gürcüstan üçün ancaq fəlakətlər vəd edir.

Təbii ki, Qərb də öz növbəsində, onların gündən-günə yeni nə isə etməyə çalışmasına baxmayaraq, heç bir şey alınmadığını, hələ də bir nəticə əldə edə bilmədiyini də görür. Görür ki, onlar sakitcə "soyuyub" bir kənara çəkilməli olacaqlar. Hətta ekspertlərin bir qismi Gürcüstanda etirazların dekabrın ortalarından sonra, yeni, bu ayın ikinci yarısında bitəcəyini belə proqnozlaşdırırlar. Ona görə belə bir proqnoz verirlər ki, gürcülər yeni prezident seçməklə, Qərb planlarına qarşı çıxmış olurlar. Həm də belə görünür ki, Qərbin davamlı olaraq, Gürcüstan müxalifətini dəstəkləməkdə davam etməsinə əsas qalmır. Çünki Qərb özü də qorxur ki, Tbilisi istənilən anda ondan üz döndərə bilər və tamamilə "başqa yolu" tutar. Məsələn, Qərb Ukraynadakı kimi silahlı üsyana rəvac verməli olduqda, o zaman Gürcüstan elə xalqın tam razılığı ilə Qərbdən üz döndərə və Rusiyaya tərəf "dönə" bilər. Sözsüz ki, bu halda da Qərb uzun illər Gürcüstandan Rusiyaya qarşı proksi qüvvə kimi istifadə etmək perspektivini belə birdəfəlik olaraq itirə biləcəyini də başa düşür və nəzərə də alır. Əks halda, indiyə qədər Qərb məhz Gürcüstanı çoxdan "burulğana" salardı...

*İnam Hacıyev*

# 2024-cü il: Heydər Əliyev Fondunun imza atdığı möhtəşəm layihələr

Bir neçə gündən sonra həyatımızın bütün sahələri ilə zəngin olan 2024-cü ilə vida söyləyəcəyik Təqvimizə yola salacağımız il yaddaqalan hadisələrlə həkk olundu. Biri digərini əvəzləyən hadisələr Azərbaycan ictimai-siyasi mədəni tarixinə silinməz iz saldı. Bu gün yarandığı zamandan etibarən, xalqımızın mənəvi sərvətinin və milli mədəniyyətinin təbliği və inkişafı istiqamətində mühüm işlər görən, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin müdrikliyə əsaslanan həyat fəlsəfəsini, xalqa xidmət missiyasının əbədiyaşarlığını təmin edən mühüm ideoloji-humanitar mərkəz kimi fəaliyyət göstərən Heydər Əliyev Fondunun il ərizində gördüyü işlər vərəqləyəcəyik. Əhəmiyyəti ilə diqqətə çəkən hər bir görülən iş xalqın böyük məhəbbətini və etimadını qazanan Azərbaycanın Birinci vitse-prezident, Heydər Əliyev Fodunun prezidenti Mehriban xanım Əliyevanın Ulu Öndər Heydər Əliyev ucalığını başlıca meyar götürməsindən, eləcə də Azərbaycanın birinci xanımının zəngin mənəvi və intellektual potensialından qaynaqlanır. Məhz bu cür mükəmməl fəaliyyətin məntiqi nəticəsi olaraq indi Heydər Əliyev Fondunun gördüyü işlərin sorağı dünyanın sayılıb-seçilən ölkələrindən, ən mötəbər beynəlxalq qurumların tribunalarından gəlir. Mehriban xanım Əliyeva Azərbaycanın ictimai-siyasi, mədəni həyatında gördüyü işlərin bir illik məsafəsinə diqqət yetirsək nə qədər möhtəşəm hadisələrin reallaşdığının bir daha şahidinə çevrilərik. Belə ki, 2024-cü ildə Azərbaycanda baş verən sıçrayışlarda, onun simasının gündən-günə dəyişməsində, dünyanın nüfuzlu dövlətləri sırasında layiq yer qazanmasında Mehriban xanım Əliyevanın fəaliyyəti, genişmiqyaslı layihələrinin müstəsna yeri və əhəmiyyəti var. Onun həyata keçirdiyi layihələr yerli əhəmiyyətli sosial problemlərin həllinə, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək məqsədi daşıyır. İnsanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım edir. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, uşaq müəssisələrinin infrastrukturlarını, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək istiqamətində Fondun böyük mahiyyət daşıyan addımları Mehriban xanım Əliyevanın humanizm prinsiplərinə söykənir.




## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA TARİXİ-DİNİ ABİDƏLƏRƏ YENİ HƏYAT

Fondur işğaldan azad olunan ərazilərdə tarixi-dini abidələrin təmir və bərpası ilə bağlı gördüyü işlər təqdirəlayiqdir. Bu ilin ən yaddaqalan hadisələrindən biri Ağdam Cümə məscidinin bərpadan sonra açılışı oldu. İşğaldan azad olunan ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində Ağdam Cümə məscidindəki işlər yekunlaşıb və məscid əvvəlki görkəminə qaytarılıb. Torpaqlarımız işğaldan azad olunduqdan sonra 2022-ci ilin martından Ağdam Cümə məscidinin bərpasına başlanılıb. Konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun olaraq Heydər Əliyev Fondu tərəfindən aparılıb.

Mamayı məscidinin bərpadan sonra açılışı da bui lə təsadüf etdi. Heydər Əliyev Fondunun layihəsi əsasında məsciddə və məscid ərazisindəki bulaqda aparılan bərpa işlərinə 2023-cü ildə başlanılıb. Mamayı məscidi şəhərin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında tikilib. Düzbucaqlı plan quruluşu olan ikimərtəbəli məscidin sütunlu interyeri var. Məhəllə məscidləri kimi Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılmışdır. Mamayı məscidi sovet hakimiyyəti illərində poeziya evi kimi də fəaliyyət göstərib. Şəhərin digər məhəllələri kimi burada da məscid, bulaq, kiçik meydan və hamam olub. Bildirilib ki, işğal dövründə məscid və onun yanında yerləşən bulaq yararsız hala salınıb. Erməni işğalçıları şəhərdəki bir çox abidələr kimi ərazidəki Mamayı bulağının da erməniləşdirməyə çalışmışdılar. Bulağın üzərindəki yazılar silinib və yerinə xaç işarəsi həkk olunmuşdu. Bundan başqa, ermənilər saxtakarlıq edərək bulağın daşlarının üzərinə erməni və rus dilində yazılmış lövhə də həkk etmişdilər. Aparılan bərpa işləri nəticəsində artıq burada erməni vandalizminin bütün izləri aradan qaldırılıb. Bundan əlavə Şuşada Heydər Əliyev Fondu tərəfindən Yuxarı Gövhər Ağa, Saatlı məscidləri, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa edilib və 2023-cü ilin may ayında istifadəyə verilib.

## ŞUŞADA AŞAĞI GÖVHƏR AĞA MƏSCİDİ

Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri başa çatdı. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Aşağı Gövhər Ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir. Şuşanın işğalı zamanı məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmiş, məscid vandalizmin qurbanına çevrilmişdi.

Şuşada Heydər Əliyev Fondu tərəfindən ən geniş bərpa işlərindən biri dağıntıların miqyasına uyğun olaraq məhz Aşağı Gövhər Ağa məscidində aparılıb.

Bərpa işləri zamanı Aşağı Gövhər Ağa məscidində erməni vandalizminə dair bir sıra faktlar aşkarlanıb. Belə ki, məscid divarlarında müxtəlif yazılar, müdaxilələr, o cümlədən divara həkk olunmuş xaç işarəsi müəyyən edilib. İşğal dövründə erməni vandalizminə məruz qalmış mədrəsə binasının dağıntılarının bir qismi də konservasiya olunub. Məscidə gələn hər bir ziyarətçi tarixi-dini abidəyə qarşı erməni vandalizminə dair bu faktların şahidi ola bilər.

Azərbaycan xalqının qədim mədəniyyətinin təşəkkül tapdığı Qarabağ və Şərqi Zəngəzur əraziləri öz tarixi, maddi-mədəniyyət və dini abidələri ilə hər zaman zəngin olub. Təəssüf ki, 30 ilə yaxın davam edən işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrə qarşı vəhşiliklər törədilmişdir. İşğalın ən ağır fəsadlarından biri bəşəri əhəmiyyətə malik mədəni irsin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsidir. İlkin araşdırmalara görə, işğal dövründə 65 məscidin yerlə-yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə artmaqdadır. Muzeydə Qarabağ və Şərqi Zəngəzur ərazilərində mövcud olmuş bir sıra dini abidələrə qarşı törədilmiş vandalizmin ümumi mənzərəsini əks etdirmək və həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə foto və videomateriallar nümayiş olunur.

## TARİXİ ZƏNGİLAN MƏSCİDİ

Bu ilin mayın 18-də Zəngilan məscidinin açılışı da yaddaqalan tarixi hadisəyə çevrildi. Qeyd edək ki, Zəngilanda yeni məscidin təməli şəhər işğaldan azad edildikdən sonra - 2021-ci il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Məscidin tikintisini Heydər Əliyev Fondu "PAŞA Holdinq" MMC-nin dəstəyi ilə həyata keçirib.

Ermənistan 30 illik işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrimizə qarşı vəhşiliklər törədib. Ermənilər şəhər və rayonlarımızda yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıdıb, təbii sərvətlərimizi talan edib, bu ərazilərdəki dini, tarixi, mədəniyyət abidələrimizi vandalizm aktlarına məruz qoyub. O cümlədən Zəngilan rayonundakı tarixi, dini, mədəniyyət abidələrimiz erməni təcavüzünün qurbanları sırasındadır. Burada da müqəddəs ocaqlarımız ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki tarixi məsciddən tövlə kimi istifadə olunub. XIX əsrdə inşa edilmiş və memarlıq abidəsi kimi inventarlaşdırılan məscid dağıdılıb, ilkin görkəmini 70 faizə qədər itirib. İşğal altında olan ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində bərpa-tikinti işlərinə başlanılmışdı. Konservasiya olunan tarixi məscidin yanında yeni məscid inşa edilib. Məscid binasında 220 və 100 nəfərlik ibadət zalları yaradılıb. Məscidin minarələri və günbəzi kaşı və kərpicdən yığılıb. İnteryerdə nəqqaşlıq işləri aparılıb, mehrab kaşıdan yığılmış nəbati naxışlarla işlənib. Minbər və şəbəkə elementləri təbii ağacdan hazırlanıb.

## GƏLƏCƏYİMİZƏ OLAN QAYĞI

Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri qısa bir zaman məsafəsində böyük uğurlara səbəb oldu. Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı əsasında ötən illərdə olduğu kimi, 2024-cü ildə də təhsil sahəsində mövcud olan problemlərin həllinə nail olundu. Müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqla proqram çərçivəsində müasir standartlara cavab verən məktəb binaları inşa olunaraq yenidən quruldu. Belə ki, müəssisələrin yüksək səviyyədə yetişən nəslin ixtiyarına verilməsi gələcək nəslin sağlam, savadlı, yetkin bir formada böyüməsinə təsirini göstərməkdədir. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Qarabağ və Şərqi Zəngəzurla məhdudlaşmır. Bu ili sentyabrın 16-da Heydər Əliyev Fondu tərəfindən Şamaxı rayonu Bağırlı kənd tam orta məktəbi üçün inşa edilmiş 460 şagird yerlik məktəb binası istifadəyə verilib. 1988-ci ildə inşa olunmuş Şamaxı rayonu F.Şıxəliyev adına Bağırlı kənd tam orta məktəb ötən müddət ərzində köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü. Ona görə də yeni təhsil ocağının inşasına qərar verilmişdi. 2024-2025-ci tədris ilində təhsil müəssisəsinə 433 şagird təhsil prosesinə cəlb olunub. Heydər Əliyev Fondu tərəfindən inşa edilən 3 korpusdan ibarət 2 mərtəbəli məktəb binasında 21 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika otağı, hərbi təlim və tibb otaqları, əmək təlimi otaqları, qarderob, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası var.

Heydər Əliyev Fondu tərəfindən Samux şəhərində isə 80 yerlik uşaq bağçası - körpələr evi inşa etdirilib. İkimərtəbəli bir korpusdan ibarət bağça zəruri mebel və avadanlıqla təchiz edilib. Binada metodika otağı, oyun zalı, yeməkxanalar, yataq otaqları, həkim otağı, musiqi və idman zalları və s. yaradılıb. Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, oyun meydançası salınıb.

Heydər Əliyev Fondunun bu ilki tədris ilində növbəti layihəsi Xaçmazda reallaşıb. Xaçmaz rayonunun İstisu qəsəbəsində 1938-ci ildə inşa olunmuş tam orta məktəb ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Bu səbəbdən Heydər Əliyev Fondunun təhsil sahəsindəki növbəti layihəsinin ünvanı məhz Xaçmazın həmin qəsəbəsi seçilib. Yeni məktəbin inşası ilə bağlı bu ilin əvvəlində başlanılan tikinti işləri yekunlaşıb.

## SƏRHƏDLƏRİ AŞAN LAYİHƏLƏR

Fondun gördüyü işlərin sərhədi yoxdur. Elə bu günlərdə Neydər Əliyev Fondunun dəstəyi ilə Ruanda məktəbi içməli su ilə təchiz olunub. Heydər Əliyev Fondu əksər Afrika ölkələri üçün bir nömrəli problem olan - içməli su ilə təchiz məsələsinə öz töhfəsini verib. Belə ki, Fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində Ruandanın Şərq əyalətinin administrativ mərkəzi Rvamaqana şəhər məktəbi içməli su ilə təchiz edilib. Heydər Əliyev Fondunun dəstəyi ilə məktəb binasının yerləşdiyi ərazidə su quyusu qazılaraq saatda 3 tona yaxın içməli suyun verilməsi təmin edilib. Bundan əvvəl sakinlər tələbatlarını təmin etmək üçün yağış suyundan asılı vəziyyətdə olublar.

Qeyd edək ki, Heydər Əliyev Fondu "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsini həyata keçirir. Fondunun Ruandada həyata keçirdiyi layihə çərçivəsində 1000-dək şagirdin təhsil aldığı məktəb tədris şəraitinin yaxşılaşdırılması və uşaqların yüksək texnologiyalarla bağlı biliklərə yiyələnməsi məqsədilə kompyuterlərlə təchiz olunub. Bununla yanaşı Fond tədris ocağının internetə çıxışını da təmin edib. Əlbəttə ki, bütün bunlar Fondun il ərizində gördüyü işləri tam əhatə etmir. Bu layihələrin miqyası geniş və əhatəlidir. Mehriban xanım Əliyeva hər zaman olduğu kimi, yola salacağımız 2024-cü ildə də möhtəşəm layihələrə imza atdı. Müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqla yanaşı, gənclərin hərtərəfli inkişafına diqqətlə yanaşaraq uşaq və yeniyetmələrdə idmana maraq aşılamaq, onları sağlam ruhda tərbiyə etmək istiqamətində müxtəlif layihələr də həyata keçirdi. Əlbəttə ki, bu Mehriban xanım Əliyevanın yalnız təhsillə bağlı həyata keçirdiyi layihələri yox, Qarabağımızda və Şərqi Zəngəzurda gerkələşdirdiyi layihələr də tarixin yaddaşına həkk olundu.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Azərbaycan və Türkiyə parlamentləri arasında əlaqələr bütün istiqamətlər üzrə genişlənməkdədir”



***Milli Məclisin sədri Sahibə Qafarova və Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş arasında görüşdən sonra spikerlər mətbuat üçün bəyanatla çıxış ediblər. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, mətbuat konfransında çıxış edən Numan Kurtulmuş bu səfərin parlamentlərarası əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.***

Azərbaycan və Türkiyənin regionda sülh və sabitliyin, inkişafın təmin olunmasına mühüm töhfələrini qeyd edən TBMM sədri, həmçinin ölkələrimizin liderliyi ilə Türk dünyasının daha da güclənməsi, Türk dövlətləri arasında birliyin möhkəmlənməsi istiqamətində atılan addımları təqdir edib. O, Azərbaycanın bu istiqamətdə atdığı addımları tarixi addımlar kimi qiymətləndirib. N.Kurtulmuş Vətən müharibəsində və antiterror əməliyyatları nəticəsində qazanılan tarixi zəfərlərdən sonra regionda davamlı sülhün və sabitliyin təmin olunması üçün yeni imkanlar yarandığını deyib, Zəngəzur dəhlizinin açılmasının önəmini vurğulayıb.

Milli Məclisin sədri Sahibə Qafarova isə çıxışında hər səfərində qardaş Türkiyənin daha da tərəqqisinin şahidi olduğunu deyib. O, qardaş Türkiyənin Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında bütün sahələrdə hərtərəfli inkişaf etdiyini, böyük nailiyyətlər qazandığını, artıq qlobal miqyasda gedən proseslərə təsir göstərdiyini, sülhə və sabitliyə töhfə verdiyini deyib.

Bildirilib ki, prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi, qətiyyəti və birgə səyləri sayəsində bu münasibətlər özünün ən yüksək zirvəsinə - müttəfiqlik səviyyəsinə yüksəlib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, qanunverici orqanlarımız arasında əlaqələr hazırda çox yüksək səviyyədədir və müttəfiqlik ruhuna uyğun olaraq bütün istiqamətlər üzrə genişlənməkdədir. Parlament sədrləri qarşılıqlı səfərlərlə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində də görüşür və müzakirələr aparırlar. Dostluq qrupları sıx dialoq içərisindədir.

İkitərəfli əməkdaşlıqla yanaşı, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Pakistan kimi uğurlu üçtərəfli əməkdaşlıq formatlarının da mövcud olduğu qeyd edilib. Diqqətə çatdırılıb ki, beynəlxalq platformalarda, parlament təşkilatlarında qarşılıqlı dəstək yüksək səviyyədədir. Parlamentlərimiz də Türk dünyasının daha da sıx birləşməsi məsələsində üzərimizə düşən vəzifələri yerinə yetirməyə çalışır.

## “Beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın tranzit ölkə mövqeyini möhkəmləndirir”

2019-2024-cü illərdə Azərbaycan üzərindən tranzit daşımaların həcmi 2,5 dəfədən çox artıb. SİA xəbər verir ki, bunu Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri, Prezidentin köməkçisi Şahmar Mövsümov Bakıda keçirilən Gömrük-Biznes Forumunda bildirib.




O qeyd edib ki, beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın tranzit ölkə mövqeyini möhkəmləndirir, biznes subyektləri üçün əhəmiyyətli imkanlar yaradır: ”Tranzit daşımalarının artımı Azərbaycanın Şimal-Cənub və Orta Dəhliz kimi dəhlizlərdəki mövqeyinin güclənməsi ilə əlaqədardır. Xüsusilə Orta Dəhliz vasitəsilə Çindən Avropaya yükdaşımaların səmərəliliyi artırılıb, tranzit müddəti 8-10 günə qədər azaldılıb. Bu nəticələr elektron xidmətlərin tətbiqində aparılan ardıcıl işlər hesabına əldə olunub. Elektron gömrük sisteminin istifadəsi nəticəsində əvvəllər günlərlə vaxt aparan əməliyyatlar indi bir neçə saat ərzində həyata keçirilir. Bu dəyişikliklər təkcə vaxt qazanmaq deyil, həm də iş mühitinin optimallaşdırılmasına və proseslərin daha şəffaf həyata keçirilməsinə töhfə verir. Həm tranzit müddətinin, həm də bəyannamələrin emalı müddətinin daha da azaldılması imkanları mövcuddur. Bu imkanları gömrük orqanları və biznes araşdırmalı və tətbiq etməlidir”.

Ş.Mövsümovun sözlərinə görə, yalnız dialoq vasitəsilə özəl sektorla dövlət qurumları arasında ikitərəfli konstruktiv əməkdaşlığa nail olmaq mümkündür. O, gömrük və biznes arasında münasibətlərin inkişafının Prezident İlham Əliyevin diqqəti və iradəsi ilə yeni zirvələrə çatdığını diqqətə çatdırıb: ”Gömrük prosedurlarının sadələşdirilməsi, elektron xidmətlərin tətbiqi və bürokratik maneələrin aradan qaldırılması sahəsində yerli və xarici sərmayəçilər üçün daha əlverişli şərait yaradılıb. Bu islahatlar iqtisadiyyatımızı gücləndirərək, Azərbaycanın qlobal dəyər zəncirində mühüm oyunçu olmasına şərait yaradır”.



EKSPERT DANIŞDI



# Müəllim-şagird münasibəti necə olmalıdır?

***“Müəllimlər və şagirdlər arasındakı münasibət təhsil prosesinin təməlini təşkil edir. Bu münasibət qarşılıqlı hörmət və anlayış üzərində qurulmalıdır. Lakin son illərdə şagirdlərin davranışlarında müşahidə olunan pozuntular, internet və sosial şəbəkələrin təsiri ilə daha da dərinləşib. Müəllimlik kimi müqəddəs peşə artıq daha çətin və stressli bir işə çevrilib. Müəllimlər təkcə bilik ötürən deyil, eyni zamanda sinifdə nizam-intizamı təmin etməyə çalışan insanlar rolunu oynayırlar”.***

Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Onun sözlərinə görə, şagirdlərin davranış pozuntuları və sosial şəbəkələrin təsiri ciddi bir problemdir: ”İnternet, sosial media və digər rəqəmsal platformalar şagirdlərin diqqətini yayındırmaqla yanaşı, onlarda mənfi davranışları da gücləndirir. Valideyn nəzarətinin azalması və ailə mühitində düzgün tərbiyənin olmaması şagirdlərin məktəb mühitində müəllimə və sinif yoldaşlarına qarşı hörmətsiz davranışlarını artırır. Bu, müəllimlərin sinifdə öyrənmə mühitini təmin etməsini çətinləşdirir”.

**Kamran Əsədov sözlərinə belə davam edib:** ”Müəllimləri müdafiə etmək zəruridir, çünki onlar təhsilin yükünü daşıyır və cəmiyyətin gələcəyini formalaşdıran insanlardır. Müəllimlərin üzərinə düşən yük təkcə dərs keçməklə məhdudlaşmır; onlar həm də şagirdlərin mənəvi və sosial inkişafını dəstəkləməyə çalışırlar. Amma əgər bir müəllim sinifdə hörmətsizlik və nizam-intizam pozuntusu ilə üzləşirsə, bu, onun həm psixoloji vəziyyətinə, həm də peşəkar fəaliyyətinə mənfi təsir göstərir.

Müəllim-şagird münasibətlərini bərpa etmək və gücləndirmək üçün bəzi əsas addımlar atılmalıdır:

o Valideynlər övladlarına daha çox diqqət ayırmalı, onların tərbiyəsinə məsuliyyətlə yanaşmalıdırlar. Müəllimin işi öyrətməkdir, tərbiyə vermək deyil.

* Məktəblərdə nizam-intizam qaydaları gücləndirilməli, şagirdlərin məsuliyyətsiz davranışlarına qarşı tədbirlər görülməlidir.

* İnternet və sosial şəbəkələrin təsirini azaltmaq üçün şagirdlər arasında rəqəmsal savadlılıq və düzgün istifadə vərdişləri aşılanmalıdır.

* Müəllimlərin hüquqları qorunmalı və onların iş şəraiti yaxşılaşdırılmalıdır. Müəllimlər təkcə tənqid olunmamalı, həm də dəstəklənməlidirlər.

Nəticədə, müəllimlərə cəmiyyətdə daha çox hörmət və dəstək göstərilməlidir. Əgər biz müəllimləri tək qoyub yalnız tənqid etsək, təhsilin gələcəyini təhlükəyə atmış oluruq. Müəllimlər təkcə bilik ötürən deyil, həm də dəyərlər formalaşdıran şəxslərdir. Onları qorumaq və dəstəkləmək cəmiyyətin hər bir üzvünün vəzifəsidir”.

***Ayşən Vəli***



# Türk dünyası ilə əlaqələr yeni inkişaf dövrünə qədəm qoyur

Bu gün Azərbaycan dünyanın ən sivil, demokratik, güclü və qüdrətli dövlətləri sırasında özünəməxsus yer tutur. 30 il erməni işğalı altında olmuş torpaqlarımızın 44 günlük Vətən Müharibəsində azad edilməsi və ərazi bütövlüyümüzün tam şəkildə bərpa edilməsi Azərbaycanın dünya miqyasında nüfuzunun daha da artmasına təkan oldu. Hər bir dövlət Azərbaycanla səmərəli əməkdaşlıq əlaqələr qurmaqda, isti münasibət saxlamaqda maraqlıdır. Həm də əlaqələrin dövlətlərin maraqlarına uyğun inkişaf etdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətinin ana xəttini təşkil edir. Bu baxımdan Azərbaycan beynəlxalq təşkilatlarda daim aktiv fəaliyyət göstərməsi ilə fərqlənmiş və milli maraqlarımızın təmin olunmasına yönəlmiş siyasət həyata keçirmişdir. Ölkəmizin beynəlxalq təşkilatlarda nüfuzunun yüksək olmasının nəticəsidir ki, Azərbaycan 2019-cu ildən etibarən Qoşulmama Hərəkatına sədrlik edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qoşulmama Hərəkatı dünyanın inkişafına mühüm töhfələr verən qlobal əhəmiyyətli tədbirlər keçirlib. Koronavirus pandemiyasının qarşısının alınması və dövlətlərin bu istiqamətdə əməkdaşlığının gücləndirilməsi üçün Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə Qoşulmama Hərəkatının videokonfrans formatında toplantısı keçirilib. Eyni zamanda, dünya ölkələrinin pandemiya ilə mübarizədə fəaliyyətlərinin artırılması məqsədi ilə bu il Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının konfransı keçirilib. Ümumiyyətlə, onu qeyd etmək lazımdır ki, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində dünyada ən fəal və sərt qabaqlayıcı tədbirlər görən dövlətlərdəndir. Pandemiyaya qarşı ölkədaxili tədbirlərlə yanaşı, Azərbaycan dövləti dünyanın 30-yaxın dövlətinə maliyyə yardımları göstərib. Ümumdünya Səhiyyə Təşkilatına isə Azərbaycan dövləti 10 milyon ABŞ dolları həcmində maliyyə yardımı göstərib.

Məhz bu kimi xeyirxah və humanist addımlarına görə, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru dəfələrlə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür məktubları ünvanlayıb. Bütün bunlar ölkəmizə çox mühüm diplomatik uğurlar gətirməklə yanaşı, beynəlxalq müstəvidə nüfuzunun və müsbət yöndə imicinin artmasına xüsusi imkanlar yaradır. Təbii ki, səbəbsiz deyil ki, Azərbaycan ordusunun sentyabrın 27-dən erməni terrorçularına qarşı Qarabağda uğurlu hərbi əməliyyatlar apardığı zaman İslam Konfransı Təşkilatının, Qoşulmama Hərəkatının, Türk Şurasının, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin irəli sürdükləri separatçı layihəyə qeyri-daimi üzvlərin sərt münasibət bildirmələri və ayrı-ayrı ölkələrin Azərbaycanın haqq işini, ədalətli mövqeyini müdafiə etmələri ölkəmizin dünyada böyük nüfuza malik olması ilə bağlıdır. Dövlətimizin uğurlu xarici diplomatiyasının prioritetlərindən biri də türk dünyasının qarşılıqlı əlaqələrinin möhkəmlənməsidir.



## Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri dönməz və sarsılmazdır

Azərbaycan Prezidenti İlham Əliyev bütün sahələrdə olduğu kimi, türk dünyası ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri, strateji müttəfiqliyi, beynəlxalq təşkilatlarda, diaspor fəaliyyətlərində eyni maraqlardan çıxış edilmələri dünya xalqları və dövlətləri üçün həsəd aparılan, paxıllıq hissi yaradan məsələyə çevrilib. Sentyabrın 27-dən Qarabağda aparılan uğurlu təmizləmə əməliyyatlarında Türkiyə hakimiyyəti və xalqı Azərbaycan dövlətinə, ordusuna ən yüksək səviyyədə mənəvi, siyasi, diplomatik dəstək göstərdi. Hələ 2016-cı il aprel döyüşləri zamanı Türk dünyası Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın ordusunun erməni terrorçularını darmadağın etməsinə haqq qazandırıb, hər cür məsələdə Azərbaycana dəstək olduqlarını bəyan etdilər. Məlumdur ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayan və ayın 5-də Rusiya atəşkəs razılaşmasının imzalanmasına qədər davam edən döyüşlərdə Ordumuz işğal altında olan torpaqlarımızın bir hissəsini, strateji məntəqələri azad edib. Hərb tariximizə ”Dörd günlük müharibə” və ya ”Aprel döyüşləri” kimi qəhrəmanlıq və zəfər vuruşu kimi şöhrət qazanan bu fenomenal hadisənin öz yeri və rolu vardır. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş bu hərbi münaqişə, əslində, Ermənistan işğalçılarının növbəti atəşkəsi pozmalarına verilən cavab olmuşdu. Yəni Azərbaycan ordusu bütün Beynəlxalq sülh prinsiplərinə sadiq qalsa da, qarşı tərəfin mənfur niyyəti, arxadan vurmaq xisləti, xainliyi özünü növbəti dəfə göstərəndə, ordumuz sadəcə onlara yerlərini göstərmişdi.

Dörd günlük müharibə zamanı, Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini azad edib, Füzuli rayonu istiqamətində yerləşən ”Lələtəpə” adlandırılan yüksəkliyə nəzarəti ələ keçirmişdir. Döyüşlər nəticəsində, Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların da nəzarətdə saxlanılmasını təmin etmişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprel döyüşlərinin bizim böyük hərbi qələbəmiz olduğunu bildirib: ”Uzun illər Ermənistan öz ordusu haqqında miflər yaradırdı, uydurmalar irəli sürürdü ki, guya bunların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, kimin ordusu yenilməzdir”.

## Ərazilərimizin azad edilməsi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının qələbəsidir

Torpaqlarımızın erməni terrorçularından, ”hərbi cinayətkar”lardan təmizlənməsi xoş müjdə olaraq bütün müsəlman Türk dünyasında böyük coşqu ilə qeyd olundu. Bakıda keçirilən Qələbə Paradında Türkiyənin hökumət və dövlət rəhbərləri, o cümlədən Prezident Rəcəb Tayyib Ərdoğan iştirak etdi. Türkiyə Silahlı Qüvvələrinin mehmetçiklərinin Qələbə Paradında sıra keçidində iştirak etmələri bütün Türk dünyasına qürurverici anlar yaşatdı. Bu nümunəvi dəstək Ulu Öndər Heydər Əliyevin Türkiyə- Azərbaycan qardaşlığı barədə dediyi ”bir millət iki dövlət”, Mustafa Kamal Atatükün ”Azərbaycan xalqının sevinci sevincimiz, kədəri kədərimizdir” tarixi fikirlərinin ruhuna tam uyğundur. Məhz buna görə də, türk dünyasının beynəlxalq aləmdə özünəməxsus yer tutması uğrunda müasir dövrün türk liderləri olaraq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan böyük xidmət göstərməkdədirlər. Hər iki ölkənin liderləri təkcə Türk Şurasının Zirvə Görüşlərində, Türk PA-da TÜRKSOY-da deyil, bütün sahələrdə əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli addımlar atır, qərarlar verirlər. İki dost, qardaş ölkə arasında iqtisadi-ticarət əlaqələri də hər il artmaqdadır. Hazırda Türkdilli dövlətlər arasında Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biridir. Azərbaycanın Türkiyə iqtisadiyyatına sərmayəsi 15 milyard dollar, Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyulan sərmayəsi isə 12 milyard dollar təşkil edir. Azərbaycan dövləti BMT-nin UNESKO, UNİCEF və digər xüsusiləşdirilmiş təşkilatları ilə genişmiqyaslı əməkdaşlıq əlaqələrinə malikdir. Bu əlaqələr çərçivəsində Azərbaycan-BMT birgə layihələri icra edilib və bu layihələrin həyata keçirilməsi demokratik institutlarının inkişafına mühüm töhfələr verib. Azərbaycan ATƏT-lə də geniş əməkdaşlıq əlaqələrinə malikdir.

Bu əlaqələr daha çox seçkilərin müşahidəsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun xətti ilə həyata keçirilən layihələr, Azərbaycanın Ermənistanın yumruqla başını əzib Qarabağı azad etdikdən sonra tarixin arxivinə atılan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasının həyata keçirilməsi məsələləridir. Azərbaycan Respublikası 2001-ci ildən üzv olduğu Avropa Şurası ilə əməkdaşlığı da yüksək səviyyədə, hər iki tərəfin maraqlarına uyğun həyata keçirilir.

## ”Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi”




Azərbaycan hərbi təşkilat olan NATO ilə əlaqələri də arzuolunan səviyyədədir. Ölkəmizin bu qurumun ”Sülh naminə Tərəfdaşlıq” proqramına qoşulması ilə, Avro-Atlantika Tərəfdaşlıq Şurasında mühüm mövqeyə malik olub. Ölkəmizin dünyada baş verən bütün siyasi - ictimai proseslərə təsir etmək imkanlarına malik olan Avropa İttifaqı ilə münasibətlər, əməkdaşlıq əlaqələri ən yüksək səviyyədə inkişaf etməkdədir. Bu mötəbər qurumla Azərbaycan arasında imzalanmış ”Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi”ndə tərəflər arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, Azərbaycanın qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması məsələləri öz əksini tapmışdır. Avropa İttifaqı ilə əməkdaşlığa Azərbaycanın xüsusi önəm verdiyini bildirən Azərbaycan Prezidenti İlham Əliyevin qeyd edib ki, Azərbaycan Avropa İttifaqı ilə münasibətlərin inkişafında maraqlıdır və bunu dövlət siyasətinin prioriteti hesab edir: ”Bu gün Azərbaycan Asiya ilə Avropa arasında yerləşən, regionumuzda dərin kökləri, Avropa ilə güclü əlaqəsi olan, Avropa dəyərlərini paylaşan bir ölkədir. Biz Avropa təsisatlarından aldığımız dəstəyə görə minnətdarıq. Əminəm ki, qarşıdakı illərdə Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq uğurla davam edəcək və tezliklə bizim qarşımızda yeni imkanlar açacaq yeni saziş imzalayacağıq”. Birmənalı şəkildə demək olar ki, Azərbaycan Avropa İttifaqı üçün əhəmiyyətli tərəfdaşdır. Bunu qurumun rəhbərləri də çıxışlarında vurğulayıblar və Azərbaycanın Avropanın enerji təchizatında önəmli rol oynadığını qeyd ediblər. Uzunluğu 3500 kilometr olan ”Cənub Qaz Dəhlizi” layihəsinin reallaşması ilə Xəzər regionundan qaz təchizatının Avropa bazarlarına birləşdirməsinə nail olunur. Eyni zamanda, Azərbaycan qurumun 23 ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 18 ölkəsi ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması, 14 üzv ölkə ilə isə Hökumətlərarası Komissiyanın yaradılması haqqında saziş imzalanıb. Əlaqələrin inkişafı, yeni müqavilələrin, sazişlərin imzalanması Azərbaycanla yanaşı dövlətlərə və beynəlxalq təşkilatlara iqtisadi, humanitar, sosial, mədəni sahələrdə xeyirlər verir. Söz yox ki, bu cür iki və çoxtərəfli müqavilələrin imzalanması və əlaqələrin inkişafı bundan sonra da davam etdiriləcək. Çünki Azərbaycan dövlətinin Prezidenti, Fateh Sərkərdə İlham Əliyevin apardığı siyasət sülhə, əmin-amanlığa, iqtisadi əlaqələrin inkişaf etdirilməsinə əsaslanır.

***İLHAM ƏLİYEV***

# Yoxsul ölkələrin zəngin dərdləri



***Hər il dekabrın 19-da dünyada qeyd olunan Beynəlxalq Yoxsullara Yardım Günü 1995-ci ildə BMT tərəfindən təsis edilib. Bu, bütün dünyada yoxsulların hüquqlarına diqqət çəkmək və onlara dəstək olmaq üçün qeyd olunan bir gündür. Yoxsul insanlar, maddi təminatı zəif və ya imkansız vəziyyətdə olan insanlardır. Bu gün dünyada yoxsulların yaşadıqları haqsızlıqlara qarşı maarifləndirmə, dəstək və yardım məqsədi ilə müxtəlif ictimai aksiyalar və tədbirlər təşkil edilir. Bu gün empatiya, bərabərlik və ədaləti vurğulayaraq sosial şüurun artırılmasını hədəfləyir.***

Hərfi mənada yoxsul insan kasıb, rahat yaşamaq üçün kifayət qədər pulu və şəraiti olmayan şəxsdir. Yoxsulluq sözü həyat üçün lazım olan bütün imkanlardan məhrum olmaq deməkdir. Həyatı təmin etmək üçün lazım olan şeylər cəmiyyətdən, mühitdən və şəraitdən asılı olaraq dəyişəcəyi üçün yoxsulluq anlayışı da mövcud vəziyyətlə müqayisə edilir. Sosial siyasət baxımından yoxsulluq tamamilə və ya nisbətən maddi cəhətdən qeyri-adekvat, insan ləyaqətinə və şəxsiyyətinə layiq həyat səviyyəsindən aşağı olma vəziyyətidir. Başqa sözlə desək, yoxsulluq sosial, mənəvi, ailə və mədəni həyatımızı da təsiri altına sala bilən sosial riskdir.

110 ölkə üzrə araşdırmaları ehtiva edən Qlobal Çoxölçülü Yoxsulluq İndeksinin (MPI) ötən ilki hesabatı Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) və Oksford Universitetinin Oksford Yoxsulluq və İnsan İnkişafı Təşəbbüsü (OPHI) tərəfindən açıqlananda məlum oldu ki, əslində dünyadakı mövcud yoxsulluğu azaltmaq olar. 2000-2022-ci illər arasındakı tendensiyaların təhlilinin nəticələrinə görə, 25 ölkə 15 il ərzində qlobal yoxsulluq ölçüsünü yarıya endirməyi bacardı və bu rəqəm sürətli inkişafın mümkün olduğunu sübut etdi. Bu ölkələrə Kamboca, Çin, Konqo, Honduras, Hindistan, İndoneziya, Mərakeş, Serbiya və Vyetnam daxildir.

Diqqətəlayiq nümunə kimi Hindistan nümunəsi təqdim edilir, bu ölkə yoxsulluğu əhəmiyyətli dərəcədə azaltmağa nail olub. Hindistanda 15 illik müddət ərzində 415 milyon insan yoxsulluqdan xilas olub. Çində 15 ildə 69 milyon və İndoneziyada 15 ildə 8 milyon insan da yoxsulluqdan xilas olub. Bu cür perspektivli tendensiyalara baxmayaraq, qlobal MPI-nin əhatə etdiyi 110 ölkənin əksəriyyəti üçün pandemiya sonrası yoxsulluq vəziyyətinin mövcud olduğu bəlli olub.

Məlumatların yalnız 2021 və ya 2022-ci illərdə toplandığı Meksika, Madaqaskar, Kamboca, Peru və Nigeriya kimi az sayda ölkələrin nəticələrinə görə, yoxsulluğun azaldılması sürəti qlobal pandemiya zamanı da davam edə bilərdi. Kamboca, Peru və Nigeriya ölkənin yoxsulluq səviyyəsindəki azalmanın mümkün olduğuna ümid verir. Bu ölkələr arasında ən perspektivli nümunə olan Kambocada qlobal pandemiya illəri də daxil olmaqla 7,5 ildə (2014-2021/22) yoxsulların sayı iki dəfə azalaraq 5,6 milyondan 2,8 milyona edib.

Lakin yoxsulluğun bütün dünyada təsiri hələ də ölçülməlidir. Məlumatların toplanmasına yenidən diqqət yetirməklə, pandemiyanın uşaqlara təsiri də daxil olmaqla dəqiq və qərəzsiz ölçülməlidir. Əhatə olunan ölkələrin yarısından çoxunda uşaq yoxsulluğunda ya statistik əhəmiyyətli azalma olmayıb, ya da ən azı bir müddət ərzində uşaqlar üçün yoxsulluq səviyyəsi böyüklərə nisbətən daha yavaş azalıb. Bu onu göstərir ki, hazırda dünyada uşaq yoxsulluğu, xüsusən də məktəbəqədər təhsil və qida çatışmazlığı baxımından əhəmiyyətli problem olaraq qalır.

2023-cü il bülleteninə görə, 110 ölkədəki 6,1 milyard insanın 1,1 milyardı (18%-dən bir qədər çoxu) ağır çoxölçülü yoxsulluq şəraitində yaşayır. Hər 6 yoxsul insandan 5-i Saharadan cənubda Afrika (534 milyon) və Cənubi Asiyada (389 milyon) yaşayır. Bütün yoxsul insanların təxminən üçdə ikisi (730 milyon nəfər) orta gəlirli ölkələrdə yaşayır; Bu ölkələrdə tədbirlər görmək qlobal yoxsulluğun azaldılması üçün həyati əhəmiyyət kəsb edir. MPI indeksinə daxil olan əhalinin cəmi 10%-ni aşağı gəlirli ölkələr təşkil etsə də, dünyadakı bütün yoxsul insanların 35%-i bu ölkələrdə yaşayır.

18 yaşından kiçik uşaqlar Qlobal Çoxölçülü Yoxsulluq İndeksindəki yoxsulların yarısını (566 milyon) təşkil edir. Uşaqlarda yoxsulluq səviyyəsi 27,7% olduğu halda, böyüklərdə bu göstərici 13,4% təşkil edir. Yoxsulluq əsasən kənd yerlərində baş verir, bütün yoxsulların 84%-i kənd yerlərində yaşayır. Dünyanın bütün bölgələrində kənd yerləri şəhər yerlərindən daha yoxsuldur. Qlobal Çoxölçülü Yoxsulluq İndeksi yoxsulluğun mürəkkəbliyinə işıq salır - problemləri göstərir və həllinə nail olmağın mümkünlüyünü deyir. Qalıb bu ölkələrdə yoxsulluq həddini azaltmaq üçün tədbirlər görmək.

Beynəlxalq Valyuta Fondunun 2024-cü ilin Aprel ayında təqdim etdiyi Ümumdünya İqtisadi Görünüş hesabatında yer alan məlumatlara görə, ölkələrin adambaşına düşən ümumi daxili məhsulu (ÜDM) nəzərə alındıqda, dünyanın ən yoxsul 10 ölkəsindən 9-nun Afrika qitəsində yerləşdiyi görülür. Şərqi Afrikada yerləşən Burundi adambaşına təxminən 230 dollar ÜDM ilə dünyanın ən kasıb ölkəsidir. Eyni bölgədəki Cənubi Sudan və Malavi də adambaşına düşən ÜDM-i təxminən 421 və 480 dollar olmaqla dünyanın ikinci və üçüncü ən yoxsul ölkələridir. Bu ölkələrdən sonra təqribən 486 dollarla Yəmən, 526 dollarla Syerra-Leone, 537 dollarla Mərkəzi Afrika Respublikası, 538 dollarla Madaqaskar, 546 dollarla Sudan, 659 dollarla Mozambik və 670 dollarla Nigeriya var.

***Lalə Mehralı***

# "Azərbaycan öz mövqeyini hər zaman açıq şəkildə deyib"

"Cənab Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibə verərkən çox maraqlı məqamlara toxundu. Amma maraqlı məqamlardan biri də hərbi amillə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında Azad Vətən Partiyasının sədri Akif Nağı deyib. Onun sözlərinə görə, İkinci Dünya müharibəsindən sonra hərbi meydan, güc və hərbi amil əsas rol oynamağa başladı: "Azərbaycan öz təcrübəsində 30 ilə yaxın gözlədi ki, beynəlxalq təşkilatlar torpaqlarımızın işğaldan azad olunması ilə bağlı hərəkət edib, öz qətnamələri, qərarları yetirsinlər, lakin nəticə olmadı. Ona görədə Azərbaycan gücə qarşı güc tətbiq etməli oldu. Ermənistan təcrxibatına cavab olaraq güc yolu ilə öz haqqını, ərazi bütövlüyünü bərpa elədi.



Azərbaycan Türkiyə əməkdaşlığın hərbi səviyyəyə keçməsi barədə kimlərsə narahat ola bilər. Ancaq ondan narahat ola bilərlər ki, Azərbaycana qarşı pis niyyətləri var, bizə qarşı hərbi addım atmaq istəyərlər, bundan narahat olmalıdırlar, olurlar da. Lakin Azərbaycanın heç kimə qarşı təcavüzkar niyyəti yoxdur və Türkiyə ilə hərbi əməkdaşlıq davam edir. Bu barədə təlimlər keçirilir, silah, kadr mübadiləsi həyata keçirilir. Azərbaycanlı zabitlərin müəyyən bir hissəsi Türkiyədə hərbi məktəbdə təlim keçirlər. Yəni bunlar norma haldır. İki bir- biri ilə yaxın qonşu, qardaş olan dövlətlərdir və bunlar arasında hərbi əməkdaşlıqdan heç kəs narahat olmamalıdır".

Akif Nağı sözlərinə belə davam edib: "Cənab Prezident bunu da vurğuladı ki, vəziyyət dəyişib. Artıq, sərhədlərin dəyişməməsi, hərbi güc amilindən istifadə olunmaması ilə bağlı qərarlar dəyişib. Amma belə görünür ki, hər kəs öz gücünə arxalanaraq, o cümlədən böyük dövlətlərdə, Prezident də qeyd elədiyi kimi gücə hesablanırlar, fikirlərini, niyyətlərini gizlətmirlər. Rusiyada, ABŞ- də bu istiqamətdə addımlar atır. Yəni artıq açıq şəkildə güc tətbiqi ilə sülhə nail olacaqlarını bildirirlər. ABŞ -nin yeni seçilmiş prezidenti də o mövqedən çıxış edir. Yəni yeri gələrsə sülhün güc amili ilə əldə olunması tezisini ortaya atırlar. Təbii ki hərbi güc nəzərdə tutulur. Dünyanın müxtəlif nöqtələrində Amerikanın hələdə hərbi bazaları var, istənilən yerə hərbi müdaxilə "hüququnu" özündə saxlayır. Yəni belə bir şəraitdə Azərbaycan da özünü müdafiə üçün addımlar atmalı, tədbirlər görməlidir.

Hər kəslə əməkdaşlığımız davam edir. Rusiya, Amerika, İsrail və digər ölkələrlə də əməkdaşlığımız var. Amma ilk növbədə Türkiyə ilə hərbi əməliyyatlarımız yerindədir. Şuşa bəyannaməsində də həmin məsələ ilə bağlı bənd salındı və orda göstərilir ki, Azərbaycan və Türkiyəyə qarşı hər hansı üçüncü tərəf güc tətbiq edərsə, bir yerdə məsləhətləşmələr apararaq hərəkətə keçirlər. Və digər istiqamətlərdə də Azərbaycan və Türkiyə prezidentlərinin açıqlamalarında zaman- zaman təsdiq olunur ki, bir yerdə hərəkət eləməyə, müdafiə eləməyə, eyni zamanda hərbi müstəvidə bir yerdə olmağa, müəyyən aqressiyaların qarşısını almağa Azərbaycan və Türkiyə qərarlıdır. Azərbaycan öz mövqeyini hər zaman açıq şəkildə deyibdir və burada da açıq şəkildə bildirir. Bu da birmənalı şəkildə Rusiya və digər dövlətlər tərəfindən qəbul olunur".

***Ayşən Vəli***

*EKSPERT AYDINLIQ GƏTİRDİ*

# Ev alan şəxsin diqqət yetirilməli olduğu məqamlar BUNLARDIR

Bu gün elan saytlarında kifayət qədər ucuz fərdi yaşayış evlərinə rast gəlmək mümkündür. Bu cür evlər alıcılarının diqqətini çəksə də, sonradan yaşanan problemlərdən əksəriyyət məlumatlı deyil. Bəs "Makler evləri" alarkən nələrə diqqət edilməlidir? Mövzu ilə bağlı SİA-ya danışan əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev bildirib ki, Abşeron ərazisində hər qiymətə fərdi həyət evləri görə bilərik: "Minimum 20.000 manatdan başlayaraq, təxminən 50-60 min arası ucuz evlər siyahısında olan yetəri qədər evlər var. Bunların böyük bir hissəsi 1 və ya 2 otaqlı evlərdir. Ev alarkən, ilk öncə peşəkar usta tərəfindən evə baxış keçirilməlidir. Çünki baxsaq, Xırdalan-Abşeron ərazisində tikilən fərdi evlərin sahələri bir zamanlar gölməçələr idi. Həmin ərazilər torpaqlarla quruduldu. O ərazilərdə evlər tikildi. Hansı ki, həmin ərazidə tikilən böyük evlərdə çökmə və çatvermə müşahidə olunur. O baxımdan təkcə evin özündən söhbət getmir. Evin yerləşdiyi ərazidə böyük əhəmiyyət kəsb edir. Makler evlərinə baxsaq, onların tikinti xərci satış qiymətindən daha bahadır. Elə qiymətə evlər təklif olunur ki, şəxsin özü ərazidə torpaq alıb, ev tiksə o daha baha qiymətə tikəcək. Amma evlərin satqısı ilə məşğul olan insanlar tikinti materiallarını topdan alırlar. Özlərinin usta briqadası olur. Yəni işçilərdən və topdan aldıqları məhsullardan olan endirimlər tikintinin maya dəyərindən aşağı olmasına gətirib çıxarır".





Ekspert qeyd edib ki, ev alan şəxs evin bünövrəsinə, harada yerləşməsinə diqqət etməlidir: "Kanalizasiya xəttlərinin mövcud olub-olmamasına baxmalıdır. Əsasən belə ucuz evlər biri-birinə bitişik olur. Bu halda da əgər, həmin ərazidə hər-hansısa fövqəladə hal baş verirsə, digər evədə keçmək ehtimalı artıq. Başqa bir tərəfdən bir dam altında olan evlərə çıxarışlar verilmir. Ümumi bir çıxarış verilir ki, gələcəkdə o çıxarışı bölmək problemi yaranır. Ona görə belə evlərdə ara məsafəsi olmalıdır".

***Seyranə Quliyeva***

# Kitab oxumaq vərdişdir: qazanmışdıq, itirdik...

***Kitab oxumaq indi xatırladığımız bir çox dəyərlər kimi keçmişdə qalıb. Artıq biz vaxtilə kitab oxumağımızdan şirin, lakin itirilmiş bir dəyərin xatirəsi kimi bəhs edirik. Hansı ki, biz sadəcə kitab oxumurduq, əslində kitab aludəçilərinə çevrilmişdik, desəm, yanılmaram. Bir kitabın bitməsində o biri başlayırdısa, o da bitən kimi axşama boş qalmamaq üçün kitabxanalara yeni kitablar dalınca yollanırdıqsa, bu, aludəçilik deyildimi? Həmin kitablar isə mənəvi qidamız olaraq bizi həmişə "tox" saxlayırdı. Dünyanı, həyatı, sevgini, yaxşı-pisi, məhəbbət-nifrəti, sədaqət-xəyanəti, zəriflik-kobudluğu bu kitablar vasitəsilə öyrənirdik. Obrazlar bizə həyatda necə olmağı aşılayırdı, necə yaşamağı əxz edirdi. Yaxşının əksi olanların hər birinə nifrət etməyə, yaxşının hər birinə oxşamağa çağırırdı.***



Bəli, sosial şəbəkələr həyatımıza daxil olmazdan əvvəl biz kitab oxuyurduq. Sanki birdən-birə o kitabları əlimizdən alıb çırıqlayıb vərəq-vərəq edib ətrafımıza səpələdilər. Əlimizdən alınan kitabların yerinə hər birimizə bir telefon verib sosial şəbəkəli etdilər bizi. Sanki bu, belə olmalı imiş. Belə də oldu. Qısa zaman kəsiyində o aludəçiliyimiz bu aludəçiliklə əvəz olundu. Biz vərəqlərində göz yaşımız, səhifələri arasında çiçəklərimiz, səhifələrində gələcəyə qurduğumuz xəyallarımız qalan kitabları elə büküb bir küncə atdıq ki, bir də ona yaxın düşüb içində itirdiklərimizi axtarmağa belə cəhd etmədik. Lakin yaxın gələcəkdə bu səhvimizin acısını yaşayacağıq, bu, sözsüzdür. O kitablarda itirdiklərimizi axtaracağıq. Lakin təəssüf ki, nə o kitabları, nə də içində itirdiklərimizi bir daha tapmayacağıq...









ARAŞDIRMA

### Təəssüf: oxumaq vərdişini qazandıq, sonra itirdik

Hər hansı müsbət vərdişi qazanmaq illər hesabına əldə olunur. Bu, heç də asan məsələ deyil. Elə kitab oxumaq vərdişinə də illərlə nail olmuşduq. Bu, hər birimizin qaçılmaz vərdişinə çevrilmişdi. Daha sonra bu vərdişin itirilməsi isə sanki ən dəyərli bir əşyamızı itirdik desəm, az olar. Bunu ən vacib bir orqanımızın, məsələn, beynimizin, ürəyimizin itirilməsi kimi dəyərləndirmək olar. Çünki biz beyinsiz, ürəksiz necə yaşaya biləriksə, kitab oxumadan da o cür yaşamış oluruq. Bu müqayisəni boş yerə gətirmədim. Yəni kitab oxumağın bədənimizdəki aparıcı bir orqan kimi düşünülməsinin daha doğru olduğu üçün ondan bəhs etdim.

İndi kitab oxumuruq, fərqinə varsaq, gündən-günə sanki beyinsizləşirik, ürəksizləşirik. Beynimiz hər gün saatlarla sosial şəbəkələrdə oxşar videolara "baxmaqla" kütləşir. Dəyərsiz videoları dəfələrlə izləməkdən artıq ürək kimi həyati dəyərli orqanımızı da itirməkdəyik. Çünki bir hadisəni o qədər görürük ki, o, bizim üçün adiləşir. Hər hansı bir halın adiləşməsindən dəhşətli isə heç nə yoxdur. Sanki gənclər ta nə əvvəlki kimi sevir, nə də əvvəlki kimi nifrət edir. Bütün hadisələrə sanki əvvəlki həssaslıqla yanaşmırıq. Uzun sözün qısası, həyatımızda adiləşmə adlı bir proses gedir. Bu prosesin sonunda nə ilə qarşılaşacağımızın isə indidən qığılcımları görünməkdədir. Kitab oxumaq kimi vərdişin itirilməsi, onun yerini alan yersiz alışqanlıqların nəticəsini yaxın gələcəkdə bizə həyat özü anladacaq...

### Azərbaycan kitab oxumaqda çox geridə qalır...

Təbii ki, kitab oxumaq vərdişləri tək Azərbaycanda deyil, bütün dünyada əvvəlki kimi deyil. Lakin dəhşətli hal ondan ibarətdir ki, biz dünyada bu sahədə ən geridə qalmış ölkəyik. Bu barədə araşdırma apararkən belə bir məlumatla qarşılaşdım ki, Böyük Britaniyada yerləşən "NOP World Culture Score Index"in tərtib etdiyi məlumatlara görə, dünyada ən çox kitab oxunan ölkə Hindistan, Tayland və Çindir. Dünyanın ən çox kitaba sahib ölkəsi olaraq siyahının başında olan Hindistanda hər bir insan həftədə orta hesabla 10 saat 42 dəqiqə kitab oxuyur. İkinci yerdə olan Taylandda adambaşına həftədə orta kitab oxuma vaxtı 9 saat 24 dəqiqə olduğu halda, üçüncü yerdə olan Çində insanlar buna həftədə 8 saat ayırır.

Siyahıda ən çox kitab oxunan digər ölkələr Filippin (7 saat 36 dəqiqə), Misir (7 saat 30 dəqiqə), Çexiya (7 saat 24 dəqiqə), İsveç (7 saat 6 dəqiqə), Fransa (6 saat 54 dəqiqə) olub, Macarıstan (6 saat 48 dəqiqə) və Səudiyyə Ərəbistanı (6 saat 48 dəqiqə) yer alıb.

Türkiyə həftədə ortalama 5 saat 54 dəqiqə oxuma vaxtı ilə siyahıda 18-ci yerdədir.

Azərbaycan bu reytinqə ümumiyyətlə, yaxın düşə bilmir.

2021-ci ildə Sosial Tədqiqatlar Mərkəzi 5 gün ərzində əhalinin kitab oxumaq və almaq davranışları ilə bağlı 1067 respondentlə telefon sorğusu keçirib. Sorğu bütün iqtisadi rayonları əhatə edib. Sorğuda əminlik intervalı 95.0%, statistik xəta əmsalı 3.0% təşkil edib. Sorğuda iştirak edənlərin yarısı (49.8%) adətən kitab oxuduğunu bildirib. Təxminən oxşar sayda respondentin (44%) ailəsində özündən başqa kitab oxuyan ailə üzvü yaşayır. Hər 4 respondentdən birinin son bir ildə oxuyub-bitirdiyi kitab sayı 1-3 kitab aralığındadır. Respondentlərin 6.4%-i isə 10 kitabı tam oxuyub bitirib.

Demoqrafik qruplar üzrə baxsaq, evlilərin 45.6%-i və subayların isə 72.9%-i adətən kitab oxuyur. İşləməyib, ancaq iş axtarışında olanların 61.6%-i, işləyənlərin isə 55%-i adətən kitab oxuduğunu bildirib. Yaş, təhsil və aylıq gəlir səviyyəsi artdıqca müntəzəm kitab mütaliə edənlərin sayı azalır. Məsələn, 18-25 və 26-35 yaş qruplarında müntəzəm kitab oxuyanların çəkisi müvafiq olaraq 76.5% və 52.3% təşkil edibsə, 36-65 yaş arasında olanların isə yarıdan az hissəsi kitab oxuyur.

Sorğudan da göründüyü kimi, ölkəmiz kitab oxumaqda çox geridə qalır. Ayrı-ayrı yaş qruplarına gəlincə isə göstəricilər ürəksıxıcıdır. Çünki bu göstəricilərin hər biri ayrı-ayrılıqda digər problemlərdən də qaynaqlanır. Lakin təəssüf ki, kitabdan uzaqlaşmağımızın səbəbi etiraf etsək də, etməsək də, əsasən onu sosial şəbəkələrlə əvəzləməyimizdən irəli gəlir.

### Kitab oxumaq həm istirahət, həm də öyrənməkdir

Kitab oxumaq hər zaman mənalı istirahəti təşkil edib. Həm də kitab həmişə əla müəllim olub. Bu gün kompüter, smartfonlar qarşısında gözləri kor olan gənclərin əvvəlki nümayəndələri bu təhlükədən uzaqda kitab oxumaqla gözəl istirahət edir, həm də dünyanın hər yerindən məlumat alırdılar. Bütün bunları söyləməkdə məqsəd sosial şəbəkələri gözdən salmaq deyil. Bu şəbəkələr əslində çox faydalıdır, lakin faydalı şəkildə istifadə olunarsa. Lakin biz onlardan faydalı şəkildə istifadə edirikmi? Əslа. Biz deməк olar ki, bütün günümüzü tamamilə sosial şəbəkələrə həsr edirik. Günboyu bir gənc saatlarla bir sosial şəbəkədə olursa, onun həm fiziki, həm də mənəvi sağlamlığı təhlükə qarşısındadır.

Elə bu səbəbdən də yuxarıda qeyd olunan sorğuda belə bir məlumatın da yer alması maraq doğurur: texnologiyanın inkişafına baxmayaraq, mütləq əksəriyyət (81.3%) kitabları əsasən hələ də çap formasında oxuyur.

Ardı Səh. 11

# Kitab oxumaq vərdişdir: qazanmışdıq, itirdik...

Əvvəli Səh. 10

18-25 və 26-35 yaş qruplarında kitabları əsasən elektron formada oxuyanlar 21%-dən yuxarı olduğu halda, bu göstərici orta yaş qruplarında 5-10% aşağı, 65 yaşdan yuxarı isə 0% təşkil edib.

Sorğuda iştirak edən oxucuların yarısından çoxu (54.3%) kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuduğunu deyib. Yaş cəhətdən bu cavabı seçən qruplar arasında gənc və orta yaşlılarla yuxarı yaşlılar arasında ciddi fərq müşahidə edilib. Belə ki, kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuyanların 26%-i 18-25, 25%-i 26-35 və 23%-i 36-45 yaş aralıqlarındadır ki, bu da digər yaş qruplarından 2-3 dəfə daha yüksəkdir. Oxucuların təxminən üçdə biri kitablara şəxsi inkişaf üçün müraciət edir. Maraqlıdır ki, hər 4 nəfərdən biri (27%) üçün kitab oxumaq istirahət sayılır.



## Vaxt yoxdur, kitab bahadır...

Bəli, bu gün istənilən sorğu zamanı kitab oxumamaq üçün gətirilən bəhanələr sırasında "vaxt yoxdur, kitab bahadır" ifadələri ilə daha çox qarşılaşmaq olur. Lakin gəlin görək vaxt nə üçün yoxdur? Təbii ki, ona görə yoxdur ki, Tiktok, İnstagram, Fecebook kimi sosial şəbəkələr insanları saatlarla özünə bağlayır. Xüsusən gənclər sosial şəbəkələrə elə aludə olublar ki, təbii ki, onların kitab oxumağa vaxtları qalmayacaq.



Digər məsələ, kitab bahadır, deyirik. Bəli, bu gün ölkəmizdəki kitab satışı mağazalarında kitabların qiyməti heç də hər kəsin büdcəsinə uyğun deyil. Ötən il kitab mağazalarından birindən "Əli və Nino" kitabını almışdım. Qiyməti 7 manat 50 qəpik idi. Mağazada bu kitabın üç ayrı nüsxəsi vardı. Onların qiyməti mən aldığımdan baha olduğu üçün ən ucuz olanını seçdim. Düşünəndə ki, ay ərzində 10 kitab alaraq 60-70 manat xərcləməli olacaqsan, bəli, gəlirlərimizə görə bu, kimi üçün bahalı, kimi üçünsə heç də bahalı deyil. Və ölkəmizdə bu gün 32 milyon kitabxana fondu olan 2922 kütləvi kitabxana fəaliyyət göstərir ki, satışda olan kitabların əksəriyyətini oradan alıb oxuyub qaytara bilərik. Elə bu səbəbdən də kitabların bahalı olması ilə bağlı bəhanə heç də tutarlı deyil.

Lakin kitabxanalarda tapa bilmədiyimiz kitablar da var ki, onları satış mağazalarından ala bilirik. Bu səbəbdən də kitabların qiymətinin nəzarətdə saxlanması vacibdir. Hazırda tələbə-gənclər əsasən yeni tərcümə edilmiş kitabları satın alırlar ki, bu da onların büdcəsinə müvafiq deyil. Bu barədə söhbətləşdiyimiz tələbələr- Nərmin Hüseynli, Aysel Məmmədli, Yağmur Musayeva, Orxan Əlizadə, Mətin Məmmədov və Röya Həsənova kitabların baha qiymətə olmasından gileyləndilər.





Yuxarıda adıçəkilən sorğuda qeyd olunduğu kimi, kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuyanların demək olar ki, yarısının aylıq gəlir səviyyəsi 500 manatdan yüksək, 55%-i ali təhsilli və 54%-i hazırda işləyənlərdir.

Kitab oxumayan 536 respondentin xüsusiyyətlərinə nəzər yetirsək, yaş cəhətdən onların arasında 26-45 yaşda olanlar (49%) üstünlük təşkil edir. Kitab oxumayanlar arasında aylıq gəlir səviyyəsi 0-250 manat olanlar təxminən 50%, orta təhsillilər isə 64% çəkiyə malikdir.

Son bir ildə kitab almağa sərf edilən vəsaitə gəlincə isə nisbətən daha çox respondent (13.3%) 21-50 manat aralığında vəsait sərf edib. 18-25 yaş qrupunda bu miqdarda vəsait sərf edənlər daha çoxdur. 51-100 manat aralığında vəsait sərf edənlərin çəkisi isə cəmi 2% azdır. Bu mənada yaş qrupu cəhətdən 36-45 yaşdakı respondentlər üstünlük təşkil edir. Aylıq gəlir səviyyəsi 500 manatdan yüksək olanlar bütün xərc qruplarında üstünlük təşkil edirlər - yəni kitaba daha çox pul xərcləyirlər. Oxşar hal təhsil səviyyəsi üçün də keçərlidir - ali təhsillilər kitaba daha çox vəsait sərf edirlər.

Kitab oxumayan 536 respondentin gətirdiyi başlıca iki səbəb kimi vaxtının (63.6%) və marağının olmaması (29.6%) qarşıya çıxır. Maraqlıdır ki, olduqca az sayda respondent (5.8%) maddi imkanının kitab almasına mane olduğunu bildirib. Vaxtının olmadığını bildirənlərin 60%-i 26-45 yaş aralığındadır. Mədəni status cəhətdən bu variant daha çox evli olanlar tərəfindən seçilib (66.4%). Tamamladığı ən yüksək təhsil səviyyəsi üzrə ali təhsili olanların 77.1%-i vaxtının olmamasını kitab oxumamağın əsas səbəblərindən biri kimi göstərib. Sosial şəbəkədən hər gün istifadə edənlərin 85.5%-i vaxtının olmamasını deyib.

## Peşəkar jurnalist Güngör Uras haqlıdır

Peşəkar jurnalist Güngör Urasın "Milliyət"dəki köşə yazılarından birində Türkiyədə kitab oxunması ilə bağlı haqlı gileyini xatırlayıram. Həmkarımız yazır: kitab oxumaq türklərin ehtiyacları siyahısında 235-ci yerdədir. Oxumaq uşaqların hava, su, yemək kimi gündəlik həyatının bir hissəsi olmalıdır ki, onlar mədəni inkişafını başa çatdırsınlar və informasiya əsrinə yetişsinlər.

Türk uşaqları kitab oxumaqda Afrika ölkələrindən geri qalır.Türkiyədə hər 100 nəfərdən yalnız 4-ü kitab oxuyur. Dünyada adambaşına kitab xərcləri 1,3 dollar olduğu halda, Türkiyədə dörddə bir dollardır. Türkiyə uşaqlara kitab hədiyyə etmək reytinqində 180 ölkə arasında 140-cı yerdədir.

Adambaşına düşən kitabların sayı 60 ildə artmayıb, əhəmiyyətli dərəcədə azalıb. Tənqid və ünsiyyət imkanlarının misilsiz genişliyinə, ali təhsil səviyyəsinə, təhsilli əhalinin on dəfə çox olmasına, xarici aləmlə qarşılıqlı əlaqənin və universitetlərin sayının artmasına baxmayaraq, savadlılıq səviyyəsi iki dəfə aşağı düşüb.

Nə olub? Türklər oxumaq vərdişini qazanıb, sonra itiriblər? İlk ağıla gələn televiziyadır... Televiziya əslində savadlı olmayan, amma özünü var kimi göstərənlər üçün bir bəhanədir. Digər tərəfdən, televiziyanın oxuyan və informasiyanın əldə edilməsində və ötürülməsində fəallıq göstərən, aktivliyini və mütaliəsini artıran insanlara təsiri var.

Bəli, həmkarımız dediklərində haqlıdır. Qonşu Türkiyədə də kitab oxumanın Azərbaycandan heç də fərqli olmayan səviyyəsi ürəkağrıdandır. Bəs nəticə necə olacaq? Bunu söyləməyin özü o qədər dəhşətlidir ki, adam qorxudan ağzına almaq istəmir. Belə isə nə edək ki, kitab oxuyaq? Bu sualı hər birimiz özümüzə verməklə, bir də dərindən düşünməklə qarşıdakı o dəhşətdən yaxa qurtarmış ola bilərik.

*Mətanət Məmmədova*

# Kişilər niyə kişi həkimini sevmir?



Bədənimiz o qədər xüsusidir ki, biz onu başqalarından gizlətmək istəyirik. Bəs, qadının ən dəyərli varlığını yad bir şəxsə, xüsusən də kişi həkimə müayinə etdirməsi dəhşət və narahatlıq mənbəyidir? SİA mövzu ilə bağlı araşdırma aparıb. Ginekoloji müayinənin tarixinə nəzər salsaq, ən qədim sənəd eramızdan 1800 il əvvəl Misirdə yazılmış "Kahun Ginekoloji Papirus"dur. Qadın orqanlarının kişi həkimlər tərəfindən ilk müayinəsi 1800-cü illərin əvvəllərinə, qadınların hələ tibb fakültələrinə qəbul edilmədiyi vaxtlara təsadüf edir. O illərə aid şəkillərdə ginekoloqun uzun paltarda ayaq üstə duran qadın xəstənin qarşısında diz çökdüyünü, görmədən yalnız barmaqları ilə hiss edərək diaqnoz qoymağa çalışdığını görürük. Otaqda olan qadın tibb işçilərinin iştirakı ilə ginekoloji müayinənin aparılmasının vacibliyi həmin illərdən başlamışdır. Nadir hallarda bəzi xəstələr müayinə sahəsini görməmək üçün köməkçi heyət xəstənin başında yerləşdirilsə də, həkimdən başqa üçüncü şəxsin cəlb olunmasını istəmirlər.

"Kişi Ginekoloq olmaq" təhlil edilməsi bir az çətin bir mövzudur. Mühafizəkar və təəssübkeş dairələr qadınların əks cinsin nümayəndələri tərəfindən müayinə olunmasını, hətta eyni mühitdə olmasını və ya əl sıxmasını arzuolunmaz hesab edir. Getdikcə daha çox qadın, daha az kişi həkimlərin ginekologiya və mamalıq şöbəsini seçməsinə meylini sırf cəmiyyətdə din və mühafizəkarlıq amili ilə izah etmək düzgün olmazdı. Eyni cinsiyyətçi təcillə, Qərb ölkələrində qadın ginekoloqların sayı kişilərin hesabına sürətlə artır. ABŞ-da Ginekologiya təhsili alan köməkçi həkimlərin 85 faizi qadınlardır. Kişi assistentlərin üstünlük təşkil etdiyi sahələrə cərrahi sahələr (xüsusilə ortopediya, urologiya, neyrocərrahiyyə), təcili tibbi yardım, anesteziologiya və radiologiya daxildir. Avropa ölkələrində əvvəllər kişilərin üstünlük təşkil etdiyi tibb fakültələrinə və ginekologiyaya qəbulda balans sürətlə qadınların xeyrinə dəyişir. Bunun səbəbi qadın həkimlərin sayının artması ilə paralel olaraq xəstələrin qadın ginekoloqlar yanında özlərini daha rahat hiss etmələri ola bilər. Bütün dünyada qadın ginekoloqların daha tez iş tapdıqları da məlum faktdır. Kişi ginekoloqunun mövqeyini təyin etməzdən əvvəl qadın sağlamlığı kontekstində bütün müvafiq tibbi, elmi, psixoloji, sosial və mədəni aspektləri nəzərə almaq lazımdır.





## Kişilərin dərin psixologiyasında hansı motivlər bu seçimə səbəb olur?

Ginekoloq olmağı əksər kişilərin əks cinsə xas olan marağı ilə izah etmək yanlış və səthi olardı. Eynilə, təbii olaraq əks cinsə, yəni kişilərə cəlb olunan qadınların, hədəf əhalisi kişi olan bir peşəni yalnız bu səbəbdən seçdiyini düşünmək də doğru olmaz. Onsuz da real həyatda belə bir tendensiya görmürük... Ola bilsin ki, heç bir kişinin qadın uroloq tərəfindən müayinə olunmaq istəməməsi ilə bağlı qərəz qadınları təbabətin bu sahəsini seçməməyə sövq edir. Niyə ümumi cərrahlar, sinəni müayinə edən rentgenoloqlar, cinsiyyət nahiyəsinə bitişik bağırsaqları, düz bağırsaq və anusu müayinə edən proktoloqlar, qadın bədəninin hər bir hissəsini görən plastik və estetik cərrahlar niyə görünmür? Niyə sırf kişi ginekoloqlar müzakirə olunur?

Qadınlar ən intim cinsi problemlərini saatlarla davam edən seanslarda kişi psixiatrları ilə bölüşdükdə cəmiyyət niyə reaksiya vermir və niyə bu tibb sahələrində həkimlərin kişi olmaması lazım olduğu yazılmır? Həkimin nöqteyi-nəzərindən qadının cinsi orqanlarının müayinəsi ilə, məsələn, gözlərini, ürəyini və ya qaraciyərini yoxlamaq arasında heç bir fərq yoxdur. Bunu başa düşmək üçün həkim olmalısan. Uzun məşq müddətində həkimin beyni tədqiq edilən bədən hissələrinin bir-birindən fərqlənə bilməyəcək şəkildə qəbul edilməsini təmin edəcək motivasiya və plastiklik qazanır. Onlar buna peşəkarlaşma deyir.

Oğlanların tərbiyəsində anaların xüsusi yeri var. Həmişə yazılır ki, ana-oğul münasibətləri ana-qız münasibətlərindən daha qaneedici və xüsusidir. Bir sözlə, ananın təsiri oğulları üzərində daha dərin və daimidir. Ata oğlan üçün kişilik, güc və etibarlılıq nümunəsidir. Ata şüuraltı rəqabət fiziki və əqli inkişafı təmin edir. Atanın passiv və maraqsız olduğu hallarda, ananın məyusluğu xüsusilə oğul üzərində əks olunur, artıq mövcud olan kişi kimliyindən irəli gələn daxili ziddiyyətləri gücləndirir. Uşaqlıq və yeniyetməlik dövründə kişi şəxsiyyəti tam formalaşmamış bu fərdlərdə anaya verilə bilməyənləri kompensasiya etmək məsuliyyəti və yükü şüuraltı olaraq anadan mütləq asılılığa çevrilə bilər. Evlənəndə analarını xanımlarında axtarmaq, onlara ana kimi davranmaq vərdişi yetkin kişilərdə az rast gəlinən bir şey deyil. Elə kişi ginekoloqlar var ki, həyatlarını qadınların sağlamlığının qorunmasına həsr etməklə, müəyyən mənada analarına olan sədaqət borcunu ödəmiş olurlar. Bir sözlə, kişilərin ginekologiyanı seçməsinin altında yatan səbəblərdən birinin bu və ya digər şəkildə anaları ilə əlaqəli olması fərziyyəsi araşdırılmağa dəyər bir ehtimaldır.

Müzakirə etməyə dəyər başqa bir məsələ qadın xəstənin kişi ginekoloqu seçməsinin altında yatan motivlərdir. Araşdırmalar göstərir ki, kişi ginekoloqlar qadın həmkarları ilə müqayisədə hər xəstəyə daha çox müayinə vaxtı sərf edirlər. Bəzi qadın xəstələr ginekoloqlarında ata fiquru axtarırlar. Qadınların emosional xarakterləri ilə böhran vəziyyətlərində kişilər qədər soyuqqanlı ola bilməyəcəyini və bu səbəbdən düzgün qərar verə bilməyəcəyini düşünən və buna görə kişi ginekoloqları seçən qadınlar da var.

## Kişilər niyə kişi ginekoloq sevmir?

Bir çox kişilər bunu qısqanclıqla əlaqələndirir. Bu gün bir çox ailələrdə kişilər qadınlarının kişi həkimə müayinə olunmasına şiddətlə etiraz edir.

## İslamda bu məsələ necə tənzimlənir?

İslam dininin sağlamlığa və buna görə də müalicəyə böyük əhəmiyyət verdiyi məlum bir həqiqətdir. Çünki insanın yaradılışında məqsəd "ibadət"dir və ibadət ancaq sağlam halda edilə bilər. Demək olar ki, qadınların kişi həkim, kişilərin isə qadın həkim tərəfindən müayinə olunmasında eyni tolerantlığı görürük. Açığı, biz indiyə qədər bunu qadağan edən heç bir ayədə görməmişik. Hətta Məhəmməd peyğəmbərin dövründə də qadınlar yaralanan kişi qaziləri müalicə edirdilər.

Ancaq bunun fövqəladə bir zərurətdən qaynaqlandığını da bilməliyik: Çünki yad kişi və qadınların bir-birini nə dərəcədə görə bildiyi hədislərdə göstərilmişdir. Şəxsi həyatla bağlı "baxılması haram olan yer tutmaq və dəri ilə təmas da haramdır". Bir qayda var ki, deyir: Buna görə də, zərurət olmadıqca, həkim əks cinsdən olan insana baxması haram olan yerləri, yəni övrətini görəcək və tutacaq şəkildə müayinə edə bilməz. Bu halda və bərabər şəraitdə qadınlar qadın həkim, kişilər isə kişi həkim tərəfindən müayinə olunacaqlar. Təsadüfən gedib əks cinsdən olan insanların müayinəsindən keçmək onun üçün zərərli olardı. Bu o deməkdir ki, xəstəni əks cinsdən müayinə etmək olmaz. Başqa sözlə desək, öz cinsi ilə öhdəsindən gələ bilmədiyi hər hansı xəstəlik və ya əzadan asılı olmayaraq, əks cinsdən olan həkimə bundan başqa səbəb üçün gedə bilməz.

Nəticə etibarı ilə xəstə kişi və ya qadın üçün önəmli olan həkimin bilikli, təcrübəli və empatiyaya sahib olmasıdır. Bir sözlə, yaxşı həkim yaxşı həkimdir.

***Ayşən Vəli***

# "Nar"ın tərəfdaşlığı ilə "Media Savadlılığı" Konfransı təşkil edildi

"Nar"ın tərəfdaş qismində çıxış etdiyi "Media Savadlılığı" Həftəsi çərçivəsində "Media Savadlılığı" Konfransı təşkil edildi. Konfransın əsas məqsədi media savadlılığının əhəmiyyətini vurğulamaq, beynəlxalq təcrübələri paylaşmaq və həssas sosial qrupların, xüsusən gənclərin bu sahədə bilik və bacarıqlarını təkmilləşdirmək idi. Konfransda iştirak edən yerli və beynəlxalq media ekspertləri, özəl şirkət və dövlət qurumlarının nümayəndələri, elmi tədqiqatçılar və vətəndaş cəmiyyəti nümayəndələri panel müzakirələrində yalan və manipulyasiya məqsədli məlumatlardan qorunma, fakt yoxlama texnikalarının tətbiqi və rəqəmsal məkanlarda məsuliyyətli davranış kimi media savadlılığının çoxşaxəli aspektlərini ön plana çəkdi.




"Nar" sərfəli mobil operator olmaqla yanaşı, eləcə də korporativ sosial məsuliyyət strategiyası çərçivəsində media savadlılığının artırılması və cəmiyyətin məsuliyyətli informasiya istifadəsinin təşviq olunması istiqamətində örnək dəstək nümayiş etdirir. Mobil operatorun bu təşəbbüsü cəmiyyətin informasiya mənbələri ilə səmərəli əlaqəsinin təbliğinə töhfə verir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Tanrıya açıq məktub

**(fəlsəfi esse)**

*2-ci hissə*




Səbrli Tanrım! Görürsən ki, bu planetdə vəziyyət necə də pisdir. Bu səbəbdən bir çoxlarında belə qənaət hasil olur ki, Sən bu planeti tamam yaddan çıxarıbsan. Şeytan da bundan istifadə edib, "dərə xəlvət, tülkü bəy" misalı dünyamızda at oynadır. Ağlı və dərrakəsi zəif olanları çaşdırır ki, guya bu planetin sahibi-ixtiyarı odur.

Bu haqda müəyyən "sübut" və "dəlillər" də gətirir ki, vallah ona inanmamaq hər adamın işi deyil. Məsələn deyir ki, görmürsünüzmü, mənə tapınanlar əla yaşayır, dünya nemətlərindən gen-bol istifadə edir, mal-dövlət və vəzifə qazanıb sağlam və şad-xürrəm ömür sürürlər. Amma deyir ki, guya Sənə tapınanlar daim təhqir olunur, acından küçələrdə ölür, kasıbçılıqdan arvad-usağın, dost-tanışın yanında xəcil olur, cibi boş, ürəyi dolu çöllərdə sərgərdan və səfil həyat sürürlər.

Adamlar da bu dünyanın gərdişindən və dövranın kəcrəftarından hali olub real situasiyanı yüngülvari monitorinq eləyəndə bu deyilənlərin reallıq olduğu qənaətini hasil edirlər. O başqa söhbətdir ki, hər kəs əbədi həyatda bunun mükafat və ya cəzasını alacaq, amma gəl görək bu sözlərə inanan varmı?

Hazırda tərəqqipərvər dünya ictimaiyyətində belə bir postulat hökm sürür ki, nagd soğan nisyə baldan yaxşıdır. Yəni, 5 günlük dünyadır, ye-iç kef elə, sonra da nə olar-olar. Deyirlər ki, oyunun qaydalarını biz qoymamışıq ha, biz ona riayət etməyə məcburuq. Yəni ki, "bəlayi-eşq"ə giriftar olanların "müsibəti-ruzigarı"ndan agah olmayan adamlar bəni-insan kimi yaşaya bilməz.

Şeyx nəsrullahların sayı yaman artıb

Mərhəmətli Tanrım, sayı-hesabı bilinmir. Kefli isgəndərlərin xalqı mövhumat zəncirindən azad etmə cəhdləri isə, nəinki bir fayda vermir, əksinə bu adamların başlarına elə oyun açırlar ki, bir də "mıqq" eləyə bilmirlər. Mövhumat demişkən, Şeytanın qara magiya elmini mənimsəyən və ruhunu şər qüvvələrə satan bəzi adamlar cadugərliklə məşğul olaraq insanları Səndən uzaqlaşdırmaqla məşğuldurlar.

Bu quldurlar, guya "ilahi qüdrətləri" sayəsində əməl-cadu ilə, insan taleyini "dəyişir", müştərilərinin işlərini "uğurlu edir", onun düşmənlərinin taleyini "məhv edir", gələcəkdən "xəbər verir" və s. bu kimi çirkin və yaramaz işlərlə məşğul olurlar. Beləliklə də, Sənin kosmik reputasiyana ciddi zərbələr vurur və bəndələrində Sənə İnamı öldürürlər.

Bir çox adamlar da Səni qoyub onlara inanır və pənah gətirirlər. Dindirəndə deyirlər ki, hər şeyi cadugərlər həll edir, onda Tanrı kimə lazımdır və nədən ötrüdür ki?! İndi bunların məntiqi ilə guya Sən mömün bəndələrini müdafiəsiz qoymusan. Amma gərək qanalar ki, içində Tanrı yazılmış qəlbə Sənin mənfi enerjini təmsil edən Şeytan və onun cadugərləri heç nə eləyə bilməz, nədən ki, qara qüvvələr yalnız qaranlığı, murdarlığı və xəbisliyi sevir, elə həmin yerlərə də rahatca daxil ola bilirlər, imanlı qəlb qarşısında isə bunlar aciz və gücsüzdülər.

Bir para adamlar da Səni və xalqı aldatmaq xəyalına düşüb özlərini dindar göstərirlər, yəni artistlik edirlər. Mən Sənin elə bəndələrini tanıyıram ki, özünə yeni titul və ictimai imtiyazlar almaq məqsədilə ziyarətə-filana gediblər, amma əslində Şeytan onlardan min dəfə şükürlüdür.

Gün ərzində bu planetdə 3000 min nəfərə yaxın zavallı insan acından ölür, 850 milyon insan aclığını yatmaqla söndürmək məcburiyyətindədir, hər il 5 milyon uşaq aclıq, yoxsulluq və dəhşətli xəstəliklərdən tələf olur, amma 5 min dollar xərc çəkib ziyarətə gedənlər bu pula 5 min acı doydurmaq kimi savab işdən yapışmaq istəmirlər?

Dünyanın başında oturan şeytanın əsgərləri gündə bir müharibə çıxarıb qırğın salırlar. Ölkələr xaraba qalır, milyonlartla insan ölür, şikəst olur, dünya zəhərlənir... Dünya əhalisinin zəhməti də silah düzəltməyə sərf olunur. Sonra da deyirlər iqtisadi böhran nədən yarandı?

Qədimlərdə adil şahlar ölkələri müdrikliklə və ədalətlə idarə edirdilər, Yerdə Qızıl Dövr bərqərar olmuşdu. Müdrik din xadimləri- ruhani ustadlar dünya malından imtina edib, ancaq ilahi bilikləri bəndələrinə təlim etmək və onlarda sevgi və mərhəmət oyatmaqla məşğul idilər. Müdrik dərvişlər dünya malından əyninə beş arşın parça, əlinə də bir əsa alıb diyar-diyar gəzib Səni mədh edirdilər. Evi-eşiyi, malı-mülkü olmayan böyük müdriklər isə, məbədlərdə ibadət və elmlə məşğul olardılar.

İndi gəl baxaq görək, bugünkü din xadimləri nə işlərlə məşğulat eləyirlər. Cah-cəlallı saraylar, bahalı avtomobillər, 3-4 arvad və ya kəniz, gündə 3-4 dəfə bahalı dünya nemətlərini gen-bol qarnına doldurmaq və 150 kq. fiziki çəkiylə fəxr etmək. Məhəmməd Peyğəmbər "qonşusu ac ikən, gözünə yuxu gedən bizdən deyil" demişdi, amma nə oldu? İndi hər gün cah-cəlallı saraylarında bol nemətlərlə bəzənmiş süfrə arxasında eyş-işrət məclisləri düzəldən, xalqın qızlarını pulunun gücü ilə qarşısında göbək rəqsi oynamağa məcbur edən toxların, qonşuluqda onlarla ac varkən gözlərinə elə rahat yuxu gedir ki...

Bəzi din xadimləri təmtəraqlı, cah-cəlallı yas məclislərində yuxarı başda oturub yağlı bozbaş və plovu rahatca həzm-rabedən keçirir, amma xalqa nəsihət eləmirlər ki, ey avam camaat, bu nə həngamə ehsandı, süfrənin üstündə bircə araq çatışmır, məgər əziz peyğəmbərlərə beləmi ehsan verilmişdi, indi siz peyğəmbərlərdən artıq zatsınızmı?!

Deməzlər! Nədən ki, sərf eləməz. Yas məclisində Sənin keyfiyyətlərindən, ilahi və maddi elmlərdən danışmaq əvəzinə başlayarlar, olüdən, qəbirdən, ehsandan, cəhənnəmdən, nə bilim hansı qorxulu şeylərdən danışmağa. O səbəbdəndir ki, artıq bir çoxlarının beynində Sənin qəzəbli, qorxulu və əzazil obrazın yaranıb.

Müqəddəs kitabları qəsdən elə təhrif və təqdim edirlər ki, insanlarda ikrah yaranır. Sənin sözlərini öz həqiqi mənasından başqa hər mənada yozub beləcə beyinlərə yeridirlər, sonda da deyirlər ki, belə Tanrı sizə lazımdırmı? Bu bilik saxtalaşdırmasının içində həqiqəti görmək, dərk etmək hər adamın işi deyil.

İndi də dünyada qlobal şeytanı imperiya qurmuş quldurlar dinindən dönməyən insanları başqa nağıllarla aldadıb onların özlərinə qarşı müqavimətini neytrallaşdırırlar. Məsələn deyirlər ki, göydən bir nəfər gələcək, hər şeyi düzəldəcək, zalımları məhv edəcək, ədaləti bərqərar edəcək. Yəni, siz oturun gözləyin, kimsə bir sehirbaz gəlib sizin əvəzinizə hər şeyi həll edəcək. Dərrakəsi və müqəddəs kitablarda deyilənlərin həqiqi mənasını anlayanlar bilir ki, belə söhbət yoxdur. Yəni, müftə kiftə yoxdur, insan cəmiyyəti hər şeyi özü həll etməlidir. Nə əksərsə, onu da biçəcək. Necə istəyirsə, elə də yaşayacaq...

Ardı var

***Elçin Bayramlı***

# Pirotexniki vasitələrin qanunsuz satışına kim icazə verir?

## *EKSPERT VƏ QURUMDAN AÇIQLAMA*







***Yeni ilin gəlişinə artıq sayılı günlər qalıb. Artıq bayram əhval-ruhiyyəsi hiss olunur. Bu, özünü təkcə küçə və prospektlərin, meydanların bəzədilməsində yox, həm də pirotexniki vasitələrin partlayış səsində, atılan rəng-bərəng fişənglərdə də hiss olunur. Baxmayaraq ki, bu cür vasitələrin istifadəsi qadağan olunub. Bəs bu cür vasitələr hardan gəlir? Hansı təhlükəsi var?***

Mövzu ilə bağlı SİA-ya danışan təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev bildirib ki, partlayıcı məmulatların indiki dövrdə istifadə olunması qanunla qadağandır: "Nəzərə almaq lazımdır ki, bu cür vasitələr insanların həyat və sağlamlığı üçün təhlükə riski daşıyır. Həm ətraf mühitə, ekologiyaya, ictimai asayişin pozulmasına, yanğın təhlükəsinə gətirib çıxarır. Ona görə, mütləq bu cür vasitələri istifadə etməmək lazımdır. İstifadəsi zamanı isə mütləq normativ tələblərə əməl etmək lazımdır. Təbii ki, dövlət tərəfindən qadağan olunduğu üçün. Tələblərə riayət etməyə ehtiyac da qalmır. Əfsuslar olsun ki, buna uşaqlar daha çox maraq göstərirlər. Bəzən valideynlər bu cür məmulatları uşaqlara alıb verir. Bu da olduqca təhlükəlidir. Çünki bu cür vasitələrin təhlükəsizlik sertifikatları, təlimatları yoxdur".

Azərbaycan Dövlət Gömrük Komitəsindən bildirilib ki, pirotexniki vasitələr "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsinə daxil edilib.

"Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr 292 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nın 9-cu bəndinə əsasən pirotexniki vasitələrin mülki dövriyyəsinə xüsusi icazə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən verilir. Eyni zamanda, sözügedən Siyahının 1-ci qeydinə əsasən pirotexniki vasitələrin idxalı Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 1 nömrəli əlavəsinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında həyata keçirilir. Beləliklə, pirotexniki vasitələri idxal etmək istəyən şəxs tərəfindən qeyd olunan sənədlərin gömrük bəyannaməsi ilə birgə gömrük orqanlarına təqdim edilməsi tələb edilir.

Gömrük orqanları pirotexniki vasitələrin qeyri-qanuni yollarla ölkəyə gətirilməsinin qarşısını almaq üçün ardıcıl və təsirli tədbirlər həyata keçirir. Bu məqsədlə Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan gömrük idarələrinin hər biri yeni, müasir texniki nəzarət vasitələri ilə, habelə iri qabaritli yüklərin yoxlanılması üçün ən qabaqcıl yoxlama-baxış sistemləri ilə və digər avadanlıqlarla təchiz olunmuşdur. Gömrük buraxılış məntəqələrində nəqliyyat vasitələri və yüklər texniki nəzarət vasitələri və kinoloji itlər vasitəsilə yoxlanılır, risklərin analizi və qabaqcıl texnologiyaların tətbiqi, həmçinin əməliyyat-axtarış tədbirləri nəticəsində pirotexniki vasitələrin gömrük sərhədindən qanunsuz yollarla keçirilməsi cəhdləri vaxtında aşkarlanır. Belə ki, son 3 il ərzində gömrük orqanları tərəfindən 1 165 846 ədəd pirotexniki vasitənin qanunsuz yollarla gömrük sərhədindən keçirilməsinin qarşısı alınmış, bu əməlləri törədən şəxslər barəsində cinayət və inzibati məsuliyyət tədbirləri həyata keçirilmişdir".

***Seyranə Quliyeva***

# 2025-ci ildə kasıb və varlı olacaq bürclər

# BƏLLİ OLDU

## *Astroloq Aytən Salaminin SİA-ya müsahibəsini təqdim edirik:*

***- Artıq 2024-cü ili yola salırıq. Sizin düşüncənizə görə, "Əjdaha ili" necə yadda qaldı?***

- 2024-cü ili bitirməyə az zaman qalıb. 2024 dünya üzərində bir sıra siyasi və iqtisadi cəhətdən çətin il oldu. Müharibələrin daha çox aktual olduğu il idi. İnsanlar üzərində də gərgin enerjilər oldu. 2025-ci il isə daha fərqli enerjidə gəlir.

***- Gələk 2025-ci ilin astroloji proqnozlarına. Hansı bürcləri nələr gözləyir?***

- 2025-ci il ümumilikdə dəyişim, dönüşüm, enerji ili olacaq. Bir çox mövzularda dəyişiklik yaşayacağıq. Hər bürcün yaşayacağı şansları, həmçinin də mübarizəsi barədə məlumat verəcəm.

Qoç bürcü - 2025-ci ildə ailə mövzularından dəstək görəcək. Ailə həyatı qura bilərlər, ev ala bilərlər, ailədən dəstək gələ bilər. Özləri ilə bağlı mübarizəli dönəmə girəcəklər. Hədəf və məqsədlərində maneələrlə rastlaşa bilərlər. Əlbəttə ki, hər mübarizənin sonunda qələbə var.

Buğa bürcü - daha çox yaxın ətraflarından dəstək alacaqlar. Bacı və qardaşlarından xoş xəbər eşidəcəklər. Tez-tez qısa səyahətlər edəcəklər. Buğa bürcləri təhsillə bağlı yeni başlanğıclar edə bilərlər. Buğalar üçün maneə kimi daha çox düşmənçilik məsələləri ön planda olacaq. Arxalarından iş çevrilə, müəyyən məqamların üstü açıla bilər, xəyanətlə üzləşə bilərlər.

Əkizlər bürcü - may ayına qədər şanslı dönəmdir. May ayından sonra maddiyyatla bağlı şanslı dönəmə gedir. Kariyera, işdə inkişaf, maaşların artımı, biznesdən gələn artımda şanslı dövrə keçirlər. Əkizlər bürcü dostları, yaxınları ilə bağlı daha təmkinli olmalıdırlar. Çünki bu dönəmdə dost bildikləri insanlar həyatlarından çıxacaq. Çevrələri böyüyəcək. Müəyyən mübarizəli məqamlarla rastlaşacaqlar.

Xərçəng bürcü - 2025-ci ilin ən şanslı bürclərindən biri xərçəng bürcləri olacaq. Yupiter tranziti ilə bolluq, bərəkət, şans gələcək. Uğurları çox olacaq, addımlarında gözəl nailiyyətlər əldə edəcəklər. Xərçəng bürcləri iş və kariyerada diqqətli olsunlar. Qarşılarına çoxlu fürsətlər çıxacaq. Bu fürsətləri daha təmkinli dəyərləndirsinlər. İşdə düşünülmüş qərarlar verməlləri məsləhətdir.

Şir bürcü - bu il bir az arxa planda qalmaq istəyə bilərlər. Enerjiləri düşmüş ola bilər, müəyyən şeyləri müzakirə edə, müəyyən qərarlar verə bilərlər. Şir bürcləri daha çox təhsil yönümlü işlərə yönələcəklər. Xaricdə işlə, təhsillə bağlı işləri varsa, səyahətlərdə maneələr yaşana bilər. Daha təmkinli qərar versinlər.

Qız bürcü - bu ilin iş və kariyerada şanslı bürclərdən biridir. İlin ikinci yarısında qız bürcləri dost çevrələrindən böyük dəstək alacaqlar. Ətrafları genişlənəcək, dostlardan böyük yardımlar ala bilərlər. Bu il maddi mövzularda bir az sıxıntı çəkə bilərlər. Mal-mülk məsələləri, kredit, bank kimi işlərə müraciət edərkən daha diqqətli qərar verməlidirlər.



Tərəzi bürcü - iş və kariyerada şanslı bürclər sırasındadır. Onlara bir sıra təkliflər gələ bilər. Bu təklifləri dəyərləndirmək məsləhətlidir. İşdə inkişaf, vəzifə artımı ola bilər. Tərəzi bürcləri bu il evlilik mövzularında problemlərlə üzləşə bilərlər. Təmkinli olmaları, düzgün qərar qəbul etmələri onlar üçün məsləhətdir.

Əqrəb bürcü - təhsil mövzularında şanslı ola bilərlər. Səyahət edə, təhsildə uğurlu imtahan verə bilərlər. İnancları ilə bağlı dini səfərləri həyata keçirə bilərlər. Əqrəb bürcləri sağlamlıqlarına diqqət yetirsinlər. Gündəlik rejimləri onları yora bilər. İş yoldaşları ilə gərginlik yaşana bilər. Təmkinli olsalar, öhdəsindən gələ bilərlər.

Oxatan bürcü - daha çox ortaq maddi gəlirlərdə şanslıdırlar. Ev, mülk ala bilərlər, həyat yoldaşlarının gəlirləri arta bilər. Bu il sevgi mövzusunda müəyyən problemlərlə üzləşə bilərlər. Şans məsələlərində problem ola bilər. Övladları ilə bağlı qərar verərkən daha diqqətli və düşünülmüş qərar versinlər.

Oğlaq bürcü - bu il sevgi mövzusunda ən şanslı bürclər sırasındadır. Ailə həyatı quracaq, ciddi münasibəti evliliklə taclandıracaq, yaxud da, biznes işinə girəcək mərhələdə olacaqlar. Onlar üçün uğurlu il olacaq. Oğlaq bürcləri dördüncü ev mövzuları ilə bağlı, yəni ev şəraitində, ata, ana, ailə üzvləri ilə bağlı müəyyən problemlərlə üzləşə bilərlər.

Dolça bürcü - bu ilin sevgi münasibətlərində şanslı bürclərdən biri olacaq. Bir çox dolçalar öz yarını tapacaq, ailəlidirlərsə, övlad sahibi olacaqlar. Təhsil həyatlarında, yaxın qohumlarla münasibətlərində ehtiyatlı olsunlar. Qısa səyahətlərdə müəyyən problemlərlə rastlaşa bilərlər.

Balıq bürcü - iki ildir ki, balıqlar çox əziyyət çəkirlər. 2025-ci ilin mayından sonra ən şanslı bürclər sırasında balıqlar olacaq. Çəkdikləri bütün əziyyətin qarşılığını bu il alacaqlar. Bütün maneələr qalxır, addımlarında uğura çatacaqlar. Kariyerada böyük fürsətlər sizi gözləyir. Onları dəyərləndirməyiniz məsləhətdir.

***- İlan ilində kimlər, hansı illər, hansı bürclər altında doğulanlar özlərini rahat hiss edəcək? Kimlər üçün gələn il ağır olacaq?***

- 2025-ci il mübarizəli il olacaq. Mart ayı 2025-ci ilin ən çətin aylarından biri olacaq. Martda retrolar, tutulmalar çox olacaq. İnsanlar unutmasınlar ki, mart ayında yaşanacaq hər bir gərginlikdə özlərini təmkinli saxlasalar, çətinlikdən qalib çıxacaqlar. 2025-ci ilin birinci yarısında, may ayının sonuna qədər əkizlər, dolça, tərəzilər üçün çox uğurlu dönəm olacaq. May ayından sonra xərçəng, balıq və əqrəb bürcləri üçün uğurlu dönəm olacaq. 2025-ci ildə bir az mübarizə dolu il yaşayacaq bürclər qız, qoç, tərəzi bürcləri olacaq.

***- İlan ilində doğulanların digərlərindən üstünlükləri olacaqmı?***

- Astrologiyada illər ümumiləşmiş enerjini verir. Bu, Çin təqviminə əsaslanan astrologiyadır. İlan ilində doğulanlar öz illəri olduğu üçün başqa illərə baxanda daha pozitiv enerjilərdə olacaqlar. Amma bürclərdən uzaqlaşsaq, hər bir şəxsin özünün doğum xəritəsi var. Bu il də individual təsirləri olacaq.

***- Ölkədə hər hansı bir fəlakətin olacağı gözlənilirmi?***

- Ölkəmiz astroloji olaraq çox gözəl perioddan keçir. Ölkəmizin bürcü əkizlər bürcüdür. Hal-hazırda Yupiter tranzitindədir. Biz bu uğurları, şansı da hiss edirik. Ölkəmizdə gözəl tədbirlər keçirilir, qonşularla münasibətlər çox gözəldir. Azərbaycan üçün yaxın illərdə heç bir təhlükə yoxdur. Əksinə Azərbaycan astroloji olaraq getdikcə çiçəklənməyə doğru gedir. Azərbaycanın səsini dünyaya çatdıracağı il 2030-cu ildir. 2030-cu il Azərbaycanın ölkələr arasında sözünü deyəcəyi il olacaq. Ölkəmiz üçün hər şey yaxşıya doğru gedir.

***- Hansı bürclərin kasıb olacağı, hansıların varlanacağı gözlənilir?***

- Bu il varlanacaq bürc nümayəndələri əkizlər bürcüdür. Oğlaq bürcləri işlərində uğurlar əldə edəcəklər. Xüsusilə də, yüksələn oğlaq bürcləri ortaq, şərik iş təklifi alsalar, mütləq dəyərləndirsinlər.

***- Bəs kimlər subaylığın daşını atacaq?***

- Subaylığın daşını atacaq bürclər qoç, balıq, oğlaq bürcləri olacaq. Bunlar evliliklə bağlı fürsətləri yaşayacaqlar. Dolçalar da sevgi ilə bağlı şanslı dönəmə girəcəklər.

***- Bəzən cütlüklər ailə qurarkən bürclərini önə çəkirlər. Qeyd edirlər ki, bizdə bürclər tutuşmur, alınmayacaq. Həqiqətən, belədir?***

- Bürclər ümumiləşmiş enerjidir. Amma heç bir insanın verdiyi proqnoz insanların həyatına yüz faiz təsir etmir. Müəyyən hissəsi astrologiyada doğum xəritəsinə əsaslanır. Mənə də bu sualı çox verirlər ki, mən filan bürcəm, yoldaşım filan bürc, necə uyğunlaşırıq? Bürclərə uyğun ailə həyatı qurmaq, evlilik qərarı almaq düzgün deyil. Ona görə ki, bürclər ümumiləşmiş enerjidir. Hansısa uyğunluq var, amma o qədər fərqli nüanslar da var ki, iki şəxsin doğum xəritəsini analiz edib cavab verə bilərik.

**Söylü Ağazadə**

---

EKSPERT VƏ QURUMDAN AÇIQLAMA

# Yarımfabrikat məhsullar alarkən DİQQƏTLİ OLUN!

***Əksər insanlar vaxtlarına qənaət etmək üçün yarımfabrikat məhsullardan istifadə edir. Ev şəraitində də məhsulları dondurub, bir neçə ay sonra istifadə edənlər kifayət qədərdir. Bəs, bu məhsullardan istifadə edərkən nələrə diqqət edilməlidir?***

Mövzu ilə bağlı SİA-ya danışan sağlam qida eksperti Asim Vəliyev bildirib ki, hazır yeməklər və yarımfabrikat məhsullar indiki dövrdə rahatlıq və tez hazırlanma baxımından çox məşhurdur: "Həyat tərzi daha dinamik olduqca insanlar vaxtına qənaət edə biləcək qida alternativlərinə üstünlük verir. Lakin bu məhsulları istehlak edərkən, onların potensial təhlükələrini və tərkibində olan maddələrin təsirlərini nəzərə almaq vacibdir. Yarımfabrikat məhsullarda konservantlar, dad artırıcılar və rəngləndiricilər geniş miqyasda istifadə olunur. Bu qatqı



maddələr qidanın rəf ömrünü uzatsa da, uzunmüddətli istifadədə sağlamlıq üçün risk təşkil edir.

Mononatrium qlutamat adlı qatqı maddəsi qidalara qarşı asılılıq yaradır və uzunmüddətli istehlak baş ağrıları, allergik reaksiyalar, nevroloji problemlər yarada bilər. Süni rəngləndiricilər xüsusən uşaqlarda hiperaktivliyə və diqqət pozğunluğuna səbəb ola bilər. Yarımfabrikat məhsullarda duz və şəkər miqdarı normadan çox ola bilir. Artıq duz hipertoniya və böyrək problemlərinə səbəb ola bilir, çox şəkər istehlakı diabet və piylənmə riskini artırır. Trans yağlar dondurulmuş və yaş yarımfabrikat məhsullarda tez-tez qarşımıza çıxır. Bu yağlar da sağlamlıq baxımından risklidir. Yarımfabrikat məhsullar uzun istilik emalına və dondurulmaya məruz qalır. Bu proses məhsulun qida dəyərini aşağı salır. Bu baxımdan da belə məhsullar qida dəyəri baxımından zəif olur.

Hər bir məhsulun tərkibini diqqətlə oxumaq vacibdir. Xüsusilə son istifadə tarixi, tərkibi, hansı qatqı maddələri əlavə olunduğu, duz və şəkər miqdarına diqqət etsək faydalı olar. Alternativ olaraq tərəvəz, meyvə və ya köftə kimi qidaları evdə hazırlayıb donduraraq təbii yarımfabrikat kimi istifadə edə bilərik. Hər zaman qatqıları çox az qidalardan istifadə etsək yaxşı olar. Etibar etdiyimiz markalardan ala bilərik. Yarımfabrikat məhsulların rahatlığı danılmaz olsa da, onları istehlak edərkən diqqətli olmaq və



balansı qorumaq vacibdir. Bu məhsulları nadir hallarda istifadə etmək, sağlam həyat tərzini qorumağı asanlaşdıra bilər. Hər zaman təbii, təzə və evdə hazırlanan qidalara üstünlük verməyə çalışaq".

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) SİA-nın sorğusuna cavab olaraq isə bildirilib: "Qida Təhlükəsizliyi Agentliyi bildirir ki, qida subyektləri qida məhsullarının satışını qida təhlükəsizliyi norma və tələblərinə uyğun həyata keçirməlidirlər: "Qida məhsulları düzgün temperaturda və şəraitdə (sərin, təmiz, quru və qoxusuz yerdə) saxlanılmalıdır, günəşlə təmasa və istiliyə məruz qalmamalıdır. Sahibkarlar soyuq-isti zəncir prinsipi gözlənilməklə, qida məhsullarının saxlanması üçün müvafiq şəraiti təmin etməyə borcludurlar. Bu qanunun tələbidir.

Agentliyin keçirdiyi illik planlı yoxlamalar, eyni zamanda vətəndaş şikayətləri əsasında aparılan nəzarət tədbirləri zamanı uyğunsuzluq aşkarlanmış məhsulun satışdan geri çağırılması, yığışdırılması, məhvedilməsi ilə bağlı , eləcə də qanunauyğun digər qərarlar qəbul edilir. Agentlik bir daha istehlakçıları bu cür qida məhsullarını alarkən, etiket məlumatları ilə tanış olmağı, o cümlədən etiketi üzərində göstərilən saxlama şəraitinə əməl edilməsinə, istehsal tarixi və yararlılıq müddətinə diqqət yetirilməsini tövsiyə edir. Qida məhsullarında uyğunsuzluq aşkarlandığı təqdirdə istehlakçılar öz hüquqlarını satıcıdan tələb edə, eyni zamanda Agentliyin 1003-Çağrı Mərkəzinə zəng vura bilərlər".

**Seyranə Quliyeva**

# Rusiyalı ekspert Qərbin 2025-ci ildə Cənubi Qafqazla bağlı gizli planlarını açıqladı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*












***Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində Qərbin 2025-ci ildə Cənubi Qafqazla bağlı planlarını açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Ermənistan və Fransa son günlər hərbi əməkdaşlıqla bağlı təmasları intensivləşdirib. Bu nə ilə bağlıdır?***

- Biz Fransa-Ermənistan qarşılıqlı fəaliyyətinin gücləndirilməsinin növbəti mərhələsini görürük. Bu siyasəti ilk növbədə iki ölkənin siyasi elitası, yüksək vəzifəli şəxsləri həyata keçirir və burada prinsipcə təəccüblü heç nə yoxdur. Fransa Ermənistanın strateji hərbi və hərbi-texniki tərəfdaşıdır. Və təbii ki, bu yolla Rusiyanı ordan sıxışdırıb, Ermənistana yerləşməyə çalışırlar. Paşinyanın KTMT-dən rəsmən çıxmasına mane olan yeganə şey Rusiya Federasiyasının sanksiyalar şəklində iqtisadi cavab tədbirləri görəcəyindən qorxmasıdır. Prinsipcə, Ermənistanla KTMT arasında bütün körpülər yandırılıb, İrəvanın Qərbə istiqamətlənməsi stratejidir və hazırkı erməni quruluşunun seçimidir. Və buna heç bir şübhə yoxdur.

Ermənistan və Fransanın hərbi idarələri arasında fəaliyyət faktına gəlincə, Ermənistan Müdafiə Nazirliyinin rəhbəri Suren Papikyan ilk dəfə deyil ki, Parisdədir. Söhbət iki ölkənin hərbi inteqrasiyasının gücləndirilməsindən, ilk növbədə Fransanın hərbi texnologiyalarına əsaslanan Ermənistan Respublikası üçün hava hücumundan müdafiə sisteminin yaradılmasından və müvafiq silahların- zenit-raket komplekslərinin və hava məkanına nəzarət radarlarının tədarükündən gedir.

Müvafiq olaraq, mütəxəssislər hazırlanır, müvafiq planlar hazırlanıb və razılaşdırılıb, xüsusi xidmət orqanları arasında əməkdaşlıq fəal şəkildə inkişaf edir- qapalı sənədlər imzalanıb, bu məlumdur. Əvvəlki dövrdə Fransanın xarici kəşfiyyat xidməti Ermənistan kəşfiyyat xidmətləri ilə Cənubi Qafqazdakı vəziyyət və daha geniş kontekstdə peykdən çəkilmiş görüntülərin təqdimatı ilə bağlı fikir mübadiləsi aparmaq üçün fəal şəkildə qarşılıqlı əlaqədə olub. Paris bu gün Ermənistanı Azərbaycan, Türkiyə, İran, Rusiya və regiondakı vəziyyətlə bağlı bütün lazımi kəşfiyyat məlumatları ilə təmin edir. De-fakto, erməni kəşfiyyat xidmətlərinə fransızların əldə etdiyi müəyyən həcmdə kəşfiyyat məlumatları verilir.

***- Azərbaycan prezidentinin köməkçisi Fransanın Ermənistana verdiyi hansı ölümcül silahlardan danışıb?***

- Hazırda konkret məqamlar barədə danışmaq çətindir... Ermənistanla birlikdə istifadəyə verilən Fransanın hava hücumundan müdafiə sistemləri erməni elitasının məsuliyyətsiz davranışı ucbatından mülki təyyarələrə təhlükə yarada bilər. Ümumiyyətlə, Ermənistan üzərində Qərb texnologiyalarına əsaslanan, müvafiq sistemli məlumat ötürmə vasitələri ilə NATO hava hücumundan müdafiə bölməsinin yerləşdirilməsinin regionun təhlükəsizliyinə təhdid olduğu aydındır. Qərbin hava hücumundan müdafiə çətiri Ermənistanda yerləşdirildikdən sonra orada hər an xarici hərbi bazaların, regiondankənar oyunçuların- Fransanın, ola bilsin ki, Avropa İttifaqının bazalarının quraşdırılmasını görə bilərik. Bunun üçün maddi baza hazırlanır. Qərbin hərbi mövcudluğu üçün ən vacib şərt Ermənistan üzərində Qərbin hava hücumundan müdafiə "çətiri"dir. Ona görə də bütün bunlar mərhələ-mərhələ həyata keçiriləcək.

***- Fransanın "fəaliyyətindən" əvvəl Ermənistanın müdafiə naziri ABŞ-da Pentaqonun rəhbəri ilə görüşüb.***

- ABŞ həm də Ermənistanın Qərbə yönləndirilməsinin əsas iştirakçılarından biridir. Buna görə də, bəli, Pentaqon vasitəsilə Amerika hərbi missiyası Ermənistanın Müdafiə Nazirliyində işləyir, ABŞ Müdafiə Nazirliyinin kəşfiyyat şöbəsi Ermənistan silahlı qüvvələrinin baş qərargahının müvafiq kəşfiyyat idarəsi ilə fəal qarşılıqlı əlaqədə olur, məlumat mübadiləsi aparır, erməni hərbçiləri isə hazırlanır. Gələcəkdə Amerika silahlarının tədarükü olacaq. Yəni hər şey tam sürətlə gedir.

***- Bir çoxları deyir ki, Tramp Cənubi Qafqaza diqqətini azaldacaq...***

- Tramp Cənubi Qafqaza diqqətini azalda bilər, amma ABŞ-da Zaqafqaziyaya diqqət yetirən nüfuzlu erməni lobbisi kimi amil var. Ona görə də unutmayaq ki, Makron Paşinyanı necə hər yerdə irəli itələyir, onu "öz adamı" kimi təqdim edir və Trampın gözündə onu belə "Amerikanın qeyri-qanuni oğlu", sadiq Amerika silahdaşı kimi təqdim etməyə çalışır. Ona görə də ekspertlər hesab edirlər ki, Fransa Ermənistanla ABŞ, Ermənistan və bütövlükdə Qərb arasında münasibətlərdə hələ də öz mənfi rolunu oynayacaq, İrəvanı uçuruma aparacaq. Odur ki, Tramp Cənubi Qafqazı vecinə almaya bilər, amma erməni lobbisi gələcək Tramp administrasiyası üçün hər zaman fürsət tapacaq ki, erməniperəst mövqeyə diqqət artırsın və onu Cənubi Qafqaza münasibətdə formalaşdırsın.

***- Fransa Xarici İşlər Nazirliyinin rəhbəri bunun fonunda Aİ-də Avropa İttifaqı ilə Ermənistanın yaxınlaşması ideyasını irəli sürəcəyini deməyib.***

- Artıq yaxınlaşırlar. Digər məsələ odur ki, Ermənistan heç vaxt Avropa İttifaqına qəbul edilməyəcək. Çünki Aİ-də parazitlər, əli uzanılı dilənçilər heç kimə lazım deyil. Ona görə də dostluq dostluqdur, iş işdir. Məsələn, Türkiyə və Gürcüstan Avropa İttifaqına qəbul edilmir. Qərbə Ermənistan troya atı kimi alver vasitəsi kimi lazımdır- ilk növbədə anti-Rusiya və anti-Azərbaycan formasında. Ona görə də Qərb Ermənistandan istifadəni davam etdirəcək və ona "kökə yedirəcək" və vəd edəcək ki, Ermənistan nə vaxtsa "mütləq" Aİ-yə daxil olacaq, amma reallıqda heç vaxt qəbul edilməyəcək.

***- Yəni Qərbin Ermənistanı silahlandırmaq və Cənubi Qafqazdan anti-Rusiya aləti kimi istifadə etmək cəhdləri ilə bağlı ehtirasların intensivliyinin hansısa yolla azalacağını gözləməyə dəyərmi?***

- Qərb Ermənistanı silahlandırmaqda davam edəcək və tədarükdən imtina olmayacaq. İllüziyalar olmamalıdır. Ermənistan Cənubi Qafqazda Qərbin fitnəkar və troya atı rolunu oynamağa öyrədilir. Nəticədə Ermənistana yenidən NATO "dişləri" veriləcək. Ermənistan ya güzəştli sxemlərlə, ya da hərbi yardım çərçivəsində silah alacaq, ona görə də bu proses davamlı olaraq davam edəcək. Fransa, ABŞ və Hollandiyanın yenidən Ermənistana hərbi güc qazandırmağa çalışacağı şübhəsizdir.

Görünən odur ki, Ermənistana silah-sursat, xüsusən də operativ-taktiki sistemlər verilməsi məsələsində Hindistanın da əli olacaq ki, Ermənistan uzaqmənzilli raket zərbələri endirmək imkanına malik olsun. Onları kimə vuracaq, kimi hədələyəcək- burada heç kimin sualı yoxdur.

***- Ermənistan KTMT-dən çıxsa, deyək ki, gələn il Rusiya Ermənistana qarşı sanksiyalar tətbiq edəcəkmi?***

- Rusiyada belə bir sual yaranır. Amma problem ondadır ki, bununla bağlı Rusiyada müxtəlif güc mərkəzləri işləyəcək, onlar Ermənistanla bağlı bu və ya digər həll yolu təklif edəcəklər. Deməyə ehtiyac yoxdur ki, bizim Rusiyada müxtəlif siyasi "qüllələrimiz" var, bizim həddən artıq fəal və nüfuzlu erməni lobbisi var ki, bu da Ermənistanın Rusiyaya qarşı sanksiyalarının əleyhinə olacaq. Bu gün aydın heç nə yoxdur. Ekspert baxışından qəti şəkildə deyə bilərəm ki, öz xarici siyasəti ilə Rusiyanın xarici təhlükəsizliyinə təhdid yaradan, KTMT-yə siyasi və hərbi ziyan vuranlara qarşı sanksiyalar tətbiq edilməlidir. Bunun olub-olmayacağı müzakirə mövzusudur, amma bu mübarizə aparılacaq.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
19 dekabr
2024-cü il

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Həkimlərin çoxu Bakıda cəmlənib - bölgələrdə isə həkim çatışmazlığı var...



Azərbaycan regionlarında ciddi həkim çatışmazlığı var. Bu barədə TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov Bakıda keçirilən "Səhiyyə İdarəçiləri Zirvəsi 2024" tədbirində bəyan edib. Araz Nəsirovun sözlərinə görə, həkimlərin 60-70 faizi son 4-5 ildə Bakıda cəmlənib. TƏBİB-in icraçı direktorunun müavini problemin həlli yollarından da bəhs edib. O qeyd edib ki, regionlarda bu problemi həll etmək üçün ürək mərkəzləri, onkoloji mərkəzlər yaradılıb və məqsəd səhiyyəni əhali üçün əlçatan olmalıdır.

O qeyd edib ki, bütün yaxşı, üçüncü səviyyəli səhiyyə xidmətinin Bakıda yerləşməsi fikri yanlışdır: "Düzdür, səhiyyə sistemində müəyyən problemlər var, amma son 4-5 ildir mövcud nöqsanların aradan qaldırılması istiqamətində böyük addımlar atılır".

## Ronaldo yenə FİFA-nı boykot etdi



Portuqaliya millisinin və "Əl-Nəsr"in kapitanı Kriştiano Ronaldo FİFA-nın "The Best" mükafatının səsverməsinə qatılmayıb. QOL.az xəbər verir ki, 39 yaşlı hücumçu səs verməkdən imtina edib. Onun əvəzinə səsvermənin iştirakçısı Portuqaliya millisinin və "Mançester Siti"nin yarımmüdafiəçisi Bernardo Silva olub. 2024-cü ilin ən yaxşı oyunçusu mükafatı üçün səsvermədə yarımmüdafiəçi komanda yoldaşı Rodrini 1-ci, Vinisius Junioru ("Real") 2-ci, Erlin Haalandı ("Mançester Siti") isə 3-cü yerə qoyub.

Ronaldo ötən il də "The Best"in səsverməsində iştirak etməmişdi. Onun əvəzinə bunu müdafiəçi Pepe etmişdi.



## İki amerikalı astronavt 6 aydır Yerə qayıda bilmir...

Bu ilin iyun ayında 8 günlük missiya ilə Beynəlxalq Kosmik Stansiyaya (BKS) gedən ABŞ-dan olan 2 astronavt Yerə qayıda bilmir. Belə ki, Buç Vilmor və Suni Vilyamsın geri qayıda bilməməsinə səbəb "Starliner" kosmik gəmisində baş verən nasazlıqdır. Sentyabrda kosmik gəmi BKS-yə 2 astronavtı çatdırmışdı. Onlar təyinat nöqtəsinə çatdıqdan sonra ABŞ Aerokosmik Agentliyi NASA kosmik gəminin Yerə boş qayıtmasına qərar verib.

NASA-nın məlumatına görə, astronavtlar planetimizə böyük ehtimalla martda qayıdacaqlar. Bu təqdirdə onlar 8 gün əvəzinə 9 ay Yerətrafı orbitdə qalmış olacaqlar.

## Bakının bu ərazilərində yaşayış və qeyri-yaşayış sahələri qiymətləndiriləcək



Bakının Binəqədi, Yasamal, Səbail, Xətai, Sabunçu və Suraxanı rayonlarının 15 küçəsində yaşayış və qeyri-yaşayış sahələrinin qiymətləndirilməsi nəzərdə tutulur. Bununla bağlı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyindəki Ərazi Tikinti-Planlaşdırma Mərkəzi hazırlıqlara başlayıb.

Məlumata görə, proses Binəqədi rayonunun II Mədən, Gənclik, 10 May və Davud Əhmədov, Yasamal rayonunun Zivər bəy Əhmədbəyov, Səbail rayonunun Əli Nəzmi, Salman Mümtaz və Seyran Məmmədov, Xətai rayonunun Marat Əmirxanov, Sabunçu rayonunun Babək, Möhsün Sənani, Əsildar Məmmədov və Mehdi Hüseynzadə, Suraxanı rayonunun Səttar Bəhlulzadə və 46-cı Yeni Suraxanı küçələrindəki yaşayış binalarında yerləşən mənzilləri və qeyri-yaşayış obyektlərini, eləcə də onların əlavə artırma sahələrini əhatə edəcək.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 2700